HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 32 (772) ■ 19 avqust 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

# Prezident İlham Əliyev Bakıda abadlıq və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Bakının Nəsimi rayonunun ərazisindəki Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində həyata keçirilən abadlıq və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.*



Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində ümumilikdə 300 min kvadratmetrə yaxın sahəyə asfalt döşənib, yol işarələri ikikomponentli yüksək keyfiyyətli boyalarla rənglənib. Pişəvəri küçəsi ikiistiqamətli və dördzolaqlı olmaqla genişləndirilərək əsaslı şəkildə yenidən qurulub. Küçə boyu səkilər tamamilə yenilənib, ən müasir işıqlandırma sistemi quraşdırılıb, yeni yaşıllıq zolaqları salınıb. Heydər məscidinə gedən küçələrin hamısında abadlıq və yenidənqurma işləri həyata keçirilib.

Görülən işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev Pişəvəri küçəsinin yenidənqurmadan sonra açılışını bildirən lenti kəsib. Dövlətimizin başçısı Cavadxan və Hüseyn Seyidzadə küçələrində və bu küçələrin kəsişdiyi ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən sonrakı vəziyyətlə də tanış olub. Qeyd edilib ki, bu küçələrə də yeni asfalt örtüyü döşənib, səkilər və buradakı yol ötürücüsü yenidən qurulub, ətraf abadlaşdırılıb, yeni yaşıllıq zolaqları salınıb, müxtəlif ağac və gül kolları əkilib. Əsaslı şəkildə yenidən qurulmuş bu küçələrin hamısında yeraltı kommunikasiyalar və su xətləri dəyişdirilib, yeni işıqlandırma sistemi qurulub.

Bütün bunlar göstərir ki, ölkədə yol-nəqliyyat kompleksinin yenidən qurulması, yeni yolların salınması, mövcud olanların isə əsaslı şəkildə təmir olunması ilə bağlı layihələr uğurla davam etdirilir. Hazırda ölkədə beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, yerli əhəmiyyətli, xüsusən də paytaxtdaxili yolların müasir səviyyədə qurulmasına xüsusi diqqət yetirilir. Bu da təbii ki, Bakıda aparılan genişmiqyaslı abadlıq işlərinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən bu sahədə görülən işlər Bakı şəhərindəki yollarda avtomobillərin rahat hərəkətinin təmin olunmasına və tıxac probleminin aradan qaldırılmasına yönəlib.

# 2015-ci il «Kənd təsərrüfatı ili»dir

## Azərbaycanda aqrar sektorun inkişafı üçün geniş zəmin yaranıb

*Azərbaycan iqtisadiyyatının davamlı inkişafını təmin edən əsas amillərdən biri onun çoxşaxəli olması və əsas iqtisadi sahələrinin paralel şəkildə inkişaf etdirilməsidir. Buna görə də ölkə iqtisadiyyatı təkcə enerji sektoru ilə deyil, qeyri-neft sektoruna aid olan digər sahələr üzrə də dinamik inkişaf edir. Hazırda Azərbaycan əksər kənd təsərrüfatı məhsullarına, o cümlədən taxıla olan tələbatı əsasən yerli istehsal hesabına ödəyir. Bu da ərzaq təhlükəsizliyi baxımından olduqca mühüm məsələdir. Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, hökumət ölkə əhalisinin ərzaqla etibarlı təminatına dair çoxyönlü tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramlarını reallaşdırır...*

«Bu gün artıq Azərbaycanda 20-yə yaxın iri fermer təsərrüfatı fəaliyyət göstərir və bu təsərrüfatlarda məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan ən azı 2 dəfə yüksəkdir. Hektardan 50-60 sentner məhsul götürülür. Bax, budur yeni yanaşma və bizim siyasətimiz». Bu fikri Prezident İlham Əliyev bu günlərdə Cəlilabad rayonuna səfəri çərçivəsində ictimaiyyət nümayəndələri ilə görüşü zamanı bildirib. Dövlət başçısı bu il Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edildiyini xatırladaraq, bol məhsul götürüldüyündən məmnun qaldığını vurğulayıb: «Bu il kənd təsərrüfatı 7 faizdən çox artıb. Hər bir ölkə üçün ərzaq təhlükəsizliyi ən vacib məsələlərdən biridir. Biz Azərbaycanda bu məsələləri həll edirik. Çalışırıq ki, Azərbaycan öz ərzaq tələbatını 100 faiz səviyyəsində özü təmin etsin. Buna nail olmaq üçün bütün imkanlar var - torpaqlar, texnika, ondan sonra dövlət tərəfindən ayrılan vəsait. Subsidiyalar, gübrələr, yanacaq verilir. Eyni zamanda, «Aqrolizinq» xətti ilə texnika təmin edilir. Yəni dövlət öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Fermerlər də bu imkanlardan səmərəli şəkildə istifadə etsinlər ki, kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin».

Dövlət başçısı həmin görüşdə Azərbaycanın öz ərzaq təhlükəsizliyini yüz faiz səviyyəsində təmin edə biləcəyinə tam əmin olduğunu bildirib. Göründüyü kimi, kənd təsərrüfatı sahəsində əldə olunan bugünkü nailiyyətlər əslində heç də asanlıqla meydana gəlməyib. Təbiidir ki, bu, davamlı şəkildə aparılan genişmiqyaslı islahatların nəticəsidir. Hələ müstəqilliyimizin ilk illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlanan aqrar islahatlar kənd təsərrüfatında tərəqqi, irəliləyiş əldə olunmasına gətirib çıxardı. Aqrar islahatlar bu gün də uğurla davam etdirilir və nəticədə kənd təsərrüfatı ardıcıl inkişaf tempini saxlayır. Bu prosesi daha da sürətləndirmək məqsədilə dövlət tərəfindən daim mütərəqqi qanunlar qəbul olunur, aqrar sahəyə dotasiyalar ayrılır və xüsusi güzəştlər tətbiq olunur. Dövlət siyasətinin əsas istiqaməti həm də ona yönəlib ki, daxili ərzaq bazarının idxaldan asılılığı maksimum azaldılsın və ərzaq ehtiyatlarının yaradılması üçün kompleks tədbirlər həyata keçirilsin.

Aqrar sahənin inkişaf etdirilməsi qeyri-neft sektorunun güclənməsi, eləcə də işsizliyin və yoxsulluğun azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırda yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunması aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətləri olaraq nəzərdə tutulur. Bununla belə, məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsinə ehtiyac var.

Bu ehtiyacı nəzərə alan Prezident İlham Əliyev «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın icrası çərçivəsində əlavə tədbirlərin görülməsi, kənd təsərrüfatı məhsulları ixracının artırılması, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması və ərzaq bazarının səmərəli fəaliyyətinin təmin edilməsi məqsədi ilə 16 yanvar 2014-cü il tarixdə «Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncam imzalayıb. Sərəncama əsasən, yerli icra hakimiyyəti orqanları ilə birlikdə Bakı şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının daha səmərəli təşkili tapşırılıb. Eyni zamanda, onların fəaliyyətinə normal şəraitin yaradılması, əhali və fermerlər üçün əlverişli ticarət mühitinin formalaşdırılması, yarmarkalarda sui-istifadə hallarının aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülməsi vacib məsələlərdəndir. Bu baxımdan, kənd təsərrüfatı məhsulları istehsalçılarının topdan və pərakəndə satış bazarlarına çıxış imkanlarının genişləndirilməsi məqsədi ilə şəhərlərdə və rayon mərkəzlərində yarmarkaların təşkilini təmin etməkdə Kənd Təsərrüfatı Nazirliyi qarşısında konkret öhdəliklər qoyulur.

Ölkəmizdə ərzağa olan daxili tələbatın öz potensialımız və imkanlarımız hesabına ödənilməsi üçün regionlarda infrastrukturun yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar reallaşdırılıb və bu proses yenə də davam edir. Azərbaycan kənd təsərrüfatının inkişafı baxımından böyük potensiala malik ölkələrdən hesab olunur və ardıcıl xarakter daşıyan dövlət siyasətinin davam etdirilməsi bu sahədə gələcəkdə 2-3 dəfəlik artıma nail olmağa imkan verə bilər və bu, gözləniləndir.

Kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər bütün vergilərdən azad ediliblər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir. Bir sözlə, aqrar sektorun intensiv metodlar üzərində qurulması, fermer təsərrüfatlarının və bütünlükdə sahibkarlığın inkişafı, bölgələrdə müasir texnologiyalara əsaslanan emal sənayesinin qurulması sayəsində kənd təsərrüfatı və ərzaq məhsullarının idxalı azalmış, özünütəminetmə səviyyəsi sürətlə yüksəlmişdir. Statistikaya nəzər saldıqda aydın olur ki, 19 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emalı müəssisəsinə 240 milyon manat güzəştli kreditin verilməsi nəticəsində son 3 ildə ət və ət məhsullarının idxalı əhəmiyyətli dərəcədə azalmışdır. 20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatlarına, 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 16 meyvə-tərəvəz emalı müəssisəsinə 171 milyon manat məbləğində güzəştli kreditlərin ayrılması isə daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanlarını da artırmışdır.

Qəbul olunmuş yeni qaydalara əsasən Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarına il ərzində ikinci əkinə görə də əvvəlki qədər subsidiya veriləcək. Bu yenilik həm bitkiçiliyə, həm də heyvandarlığın inkişafına müsbət təsirini göstərəcək. Kənd təsərrüfatı sahəsində subsidiyaların verilməsi mexanizminin ana xəttini hər hektara görə müəyyən edilən vəsait təşkil edir. Lakin müxtəlif faktorlardan asılı olaraq ana subsidiya ilə yanaşı, subsidiyaya artımlar və ya azalmalar tətbiq oluna bilər. Avropa təcrübəsində hər hektara verilən ana subsidiya ilə bərabər, həmin ildə qarşıda duran vəzifələrdən asılı olaraq əlavə subsidiyalar tətbiq olunur. Təsərrüfatın yerləşdiyi ərazidən və şəraitdən asılı olaraq subsidiyaların həcmi dəyişə, ixtisaslaşma səviyyəsinə görə də həmçinin regionlar üzrə əmsallar fərqlənə bilər. Azərbaycanda da ana subsidiyanın üzərində durmaqla müxtəlif sahələrə əlavə subsidiyaların verilməsi mexanizmi tətbiq olunur.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə digər sahələrdə olduğu kimi kənd təsərrüfatı sektorunda da regionun, lider dövlətinə çevriləcək.

**«AZƏRBAYCAN» qəzeti**

2 Vergilər Nazirliyi informasiya təhlükəsizliyi sahəsində ən yüksək səviyyəli İSO/İEC 27001: 2013 uyğunluq sertifikatını alıb

3 İstifadəçilər Vergilər Nazirliyinin rəsmi internet saytının fəaliyyətindən məmnundurlar

4 Avtonəqliyyat xidməti göstərən şəxslər bilməlidirlər ki...

5 Torpaqların sənədləşdirilməsi bələdiyyə vergilərinin yığımında mühüm əhəmiyyət daşıyır

# Vergilər Nazirliyi informasiya təhlükəsizliyi sahəsində ən yüksək səviyyəli İSO/İEC 27001: 2013 uyğunluq sertifikatını alıb



BS Cert.

AZS Milli Sertifikatlaşdırma Sistemi
Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi
yanında Dövlət Akkreditasiya Xidməti
AZS National Certification System
State Accreditation Service under the State Committee on Standartization, Metrology and Patent of Azerbaijan Republic

"BS CERT" MMC İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması üzrə Orqan
The certification body on management systems of the "BS CERT" LTD
VÖEN: 2002693391

Akkreditasiya attestatı № AZ 031/11.1/09.0510.01.13
Verilmə tarixi : 20 Sentyabr 2013-cü il

Accreditation certificate № AZ 031/11.1/09.0510.01.13
Issue date : 20 September 2013

Blank № 005

Uyğunluq Sertifikatı

Certificate of conformity

Azərbaycan Respublikasının Vergilər Nazirliyi

İSO/İEC 27001:2013
"İnformasiya Təhlükəsizliyinin İdarəetmə Sistemləri"
beynəlxalq standartının
TƏLƏBLƏRİNƏ UYĞUNDUR

Qeydiyyat № AZ 03112020052015
Register №
Qeydiyyat tarixi 10.08.2015
Register date
Qüvvədə olma müddəti 10.08.2018
Validation date

"BS CERT" MMC-nin
İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması üzrə Orqanın rəhbəri
Director of the certification body on management Systems of the "BS CERT" LTD

İmza :
M.Y. SƏLİMZADƏ SƏLİM SƏTTAR oğlu

İdarəetmə sisteminin ümumi reyestrinin hesab nömrəsi № 005
General registration number of the management system № 005

Müasir vergi inzibatçılığında vergi orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən biri də vergi sisteminin texnoloji imkanlarının genişləndirilməsi və elektron xidmətlərin tətbiqi dairəsinin artırılmasıdır. Son illər Azərbaycanın vergi sistemində bu sahədə əsaslı işlər görülərək Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) texniki imkanları genişləndirilmiş, daha operativ və çevik vergi nəzarəti mexanizmi formalaşdırılmış, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin kəmiyyət və keyfiyyəti artırılmışdır.

İnformasiya texnologiyalarının tətbiqinin genişlənməsi, eyni zamanda, vergi sistemində informasiya resurslarının və məlumat təhlükəsizliyinin qorunması kimi məsələləri də aktuallaşdırmışdır. Ötən illər ərzində Vergilər Nazirliyi AVİS-də məlumat təhlükəsizliyinin, vergi orqanlarında dövlət, peşə və kommersiya sirrinin qorunması məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirilsə də, AVİS-in texniki imkanlarının genişləndirilməsi, bu sistemdə yaradılan, toplanılan və mübadilə edilən məlumatların, sənəd dövriyyəsinin həcminin artması, üçüncü şəxslərə aid məlumatların dövriyyəsinin genişlənməsi vergi orqanları tərəfindən istifadə olunan informasiya resurslarının təhlükəsizliyinin təmin edilməsi və vergi ödəyiciləri barəsində kommersiya sirri təşkil edən məlumatların qorunması üçün daha təkmil vasitələrin tətbiqinə ehtiyac yaranmışdır.

Bununla əlaqədar Vergilər Nazirliyi informasiya təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılması, tətbiqi, istismarı, daim nəzarətdə saxlanılması və təkmilləşdirilməsi məqsədilə ən yüksək beynəlxalq standartın - İSO/İEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» beynəlxalq standartının tətbiqi ilə bağlı ötən ilin sonlarından başlayaraq gərgin və böyük həcmli işlər həyata keçirmişdir. Bunun nəticəsi olaraq Vergilər Nazirliyi bu beynəlxalq standartın alınması üçün zəruri olan sertifikasiyanı keçərək 10 avqust 2015-ci il tarixdə 3 il müddətinə müvafiq sertifikatı almışdır.

Vergilər Nazirliyi ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu yanında «AzStandartİNFORM» MMC arasında ötən ilin dekabrında bağlanmış satınalma müqaviləsinə uyğun olaraq İSO/İEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» standartının tətbiqi üzrə Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu və Britaniya Standartlar İnstitutunun mütəxəssislərinin iştirakı ilə Vergilər Nazirliyinin müvafiq sahədə fəaliyyət göstərən mütəxəssislərinə təlimlər keçilmişdir.

Treninqlərdə iştirakçılar informasiya təhlükəsizliyinin idarə edilməsinin forma və metodları, sənədləşmə qaydaları, informasiya təhlükəsizliyinin təmini səviyyəsinin müəyyənləşdirilməsi məqsədi ilə daxili auditin keçirilməsi qaydalarını mənimsəmişlər.

Beynəlxalq standartın tələblərinə uyğun olaraq cari ilin fevral ayından başlayaraq aidiyyəti sənədlərin hazırlanmasına başlanılmış, bu məqsədlə ekspertlər tərəfindən Plan - «İSO/İEC 27001 standartı üzrə «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri»nin işlənib hazırlanması və tətbiqi üçün texniki tapşırıq»ın layihəsi və 31 normativ sənəd hazırlanmışdır.

Hazırlanmış layihələrdə informasiya təhlükəsizliyinin idarə olunması prosesində iştirak edən şəxslərin hüquq və vəzifələri, onlara dair tələblər, habelə tələb və qaydaların həyata keçirilməsi mexanizmləri təkmilləşdirilmişdir ki, bu da son nəticədə Vergilər Nazirliyində informasiya təhlükəsizliyi üzrə idarəetmə və nəzarət mexanizmlərinin səmərəliliyinin daha da yüksəldilməsinə xidmət edəcəkdir.

Beynəlxalq standartın tətbiq edilməsi informasiya təhlükəsizliyinin idarə olunmasına dair strategiyanın, siyasətin və kompleks tələblərin, informasiya təhlükəsizliyinin idarə edilməsi sahəsində cavabdehlik və vəzifələrin bölüşdürülməsi ilə bağlı tələblərin, habelə vergi orqanlarının vəzifəli şəxslərinin öhdəliklərinin, müəyyən edilmiş qaydaların və normaların vəzifəli şəxslər, struktur bölmələri və vahidləri tərəfindən yerinə yetirilməsi səviyyəsinin müəyyən olunmasına imkan verir.

Bununla yanaşı, yeni standartın tətbiqi ilə informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində risklərin və ya çatışmazlıqların vaxtında aşkarlanması və müvafiq tədbirlərin həyata keçirilməsi yolu ilə onların aradan qaldırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə informasiyaların təsnifatlaşdırılması qaydasının və onların əhatə dairəsinin, eləcə də server otaqlarına dair tələblərin müəyyən edilməsi və s. kimi məsələlər də öz həllini tapacaqdır.

Xatırladaq ki, informasiya təhlükəsizliyinin idarəetmə sistemi mühüm əhəmiyyət kəsb edən informasiya aktivlərinin qorunması istiqamətində idarəolunan yanaşmadır və İSO/İEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» beynəlxalq standartının tətbiqi ilə həyata keçirilir. Bu standart ilk dəfə olaraq informasiya təhlükəsizliyi sahəsində müvafiq sertifikatlaşdırma aparan dünyanın ən tanınmış institutlardan biri - Britaniya Standartlar İnstitutu (BSİ) tərəfindən 1995-ci ildə təsdiq olunmuşdur.

İSO/İEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» beynəlxalq standartı dünyada informasiya təhlükəsizliyi sahəsində ən yüksək və ən çətin sertifikasiya prosesinə malikdir və Vergilər Nazirliyi respublikamızda mərkəzi icra hakimiyyəti orqanları arasında bu institutun sertifikatını almış yeganə dövlət qurumudur.

## Neqativ hallarla mübarizə gücləndirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrlə bağlı iclasında dövlət başçısının verdiyi tapşırıqlarla əlaqədar Vergilər Nazirliyinin Daxili təhlükəsizlik baş idarəsində 2015-ci ilin 2-ci rübündə daxili nəzarət qaydasında keçirilmiş tədbirlərin, bu zaman aşkar edilmiş intizam pozuntularının monitorinqi aparılmışdır. Müəyyən edilmişdir ki, 2015-ci ilin 2-ci rübündə nazirliyin struktur bölmələrinin daxili nəzarət qrupları tərəfindən ümumilikdə 523, o cümlədən yerli vergi orqanlarında 442, nazirliyin aparatının struktur vahidlərində 81 daxili nəzarət tədbiri keçirilmişdir.

2015-ci ilin 2-ci rübündə vergi orqanı əməkdaşlarının hərəkətlərindən (hərəkətsizliyindən) Daxili təhlükəsizlik Baş İdarəsinə daxil olmuş müraciətlərin və təqdimatların araşdırılması, habelə yerli vergi orqanlarında aparılan daxili nəzarət tədbirləri zamanı 27 əməkdaşın xidməti fəaliyyətində nöqsanlara yol verildiyi aşkar edilərək 13 əməkdaşa töhmət, 8 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmiş, 1 əməkdaşın xüsusi rütbəsi bir pillə aşağı salınmış, 1 əməkdaş 6 ay müddətinə aşağı vəzifəyə keçirilmiş, 2 əməkdaş tutduğu vəzifədən kənarlaşdırılmış, 2 nəfərə yazılı xəbərdarlıq edilmişdir.

## Elektron xidmətlər üzrə inzibati reqlamentlər təsdiq edilmişdir

Vergilər Nazirliyinin Kollegiyası tərəfindən «Çağrı Mərkəzi vasitəsilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» və «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu» elektron xidmətlərinin inzibati reqlamentləri təsdiqlənib.

«Çağrı Mərkəzi vasitəsilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» elektron xidməti elektron imzası olan vergi ödəyicisinin Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciəti üzrə müvafiq rüblük bəyannamənin hazırlanması və elektron qaydada göndərilməsini əhatə edir. Bu, Mərkəzin təmsilçisi tərəfindən vergi ödəyicisinin təqdim etdiyi məlumatlar əsasında yerinə yetirilir. Elektron xidmət Vergilər Nazirliyi tərəfindən qismən avtomatlaşdırılmış formada həyata keçirilir. Xidmətin icra müddəti:

- icraçının tələb olunan məlumatları daxil etməsindən;
- istifadəçinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən;
- əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.

«Sadələşdirilmiş verginin bəyannaməsi» vergi orqanı tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə elektron formada tərtib edilərək gücləndirilmiş elektron imza vasitəsilə təsdiqləməsi üçün vergi ödəyicisinə göndərilir. Məlumatların doğruluğu təsdiqləndikdən sonra bəyannamə vergi orqanına yönəldilir və bu barədə vergi ödəyicisinin mobil telefonuna mesaj daxil olur.

«Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu» elektron xidməti Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlir və ya mənfəət vergisinin hesabatını vermək öhdəliyi olan vergi ödəyiciləri tərəfindən müvafiq ərizənin vergi orqanına təqdim olunmasını əhatə edir.

Bu elektron xidmət Vergilər Nazirliyi tərəfindən tam avtomatlaşdırılmış formada həyata keçirilir və icra müddəti «İnzibati icraat haqqında» Qanunla tənzimlənir. Xidmətin icrası zamanı vergi ödəyicisi tərəfindən təqdim edilmiş ərizə cavablandırılır və bu barədə onun elektron ünvanına məlumat göndərilir.

Yeni elektron xidmətlərdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə (VÖEN) və gücləndirilmiş elektron imzaya malik şəxslər yararlana bilərlər. Elektron xidmətlərdən istifadə ödənişsizdir.

## Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən göstərilən xidmətlər

*2015-ci ilin iyul ayında Vergilər Nazirliyinin Çağrı Mərkəzində canlı əlaqə zamanı 17.215 müraciət cavablandırılmışdır.*

Müraciətlərin 28,86 faizi ayrı-ayrı vergi növləri, 19,95 faizi vergi nəzarəti tədbirləri, 0,8 faizi vergi orqanlarının qərarlarından (aktlarından) və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlər, 50,39 faizi digər məsələlər barədə olmuşdur.

Cari ilin iyul ayı ərzində səsli menyu vasitəsilə məlumat almaq üçün Çağrı Mərkəzinə 5.382 zəng daxil olmuş, 2.852 zəng zamanı vergi borcları, 1.432 zəng zamanı isə vergilərin növləri ilə bağlı suallar cavablandırılmışdır.

Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 325.030 qısa mesaj göndərilmişdir.

İyul ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 360.196 daxilolma qeydə alınmışdır.

## Elektron kitabxanada «onlayn təlim»

Ötən ildən Vergilər Nazirliyinin elektron kitabxanası istifadəyə verilib. Vergi sisteminə aid məlumatların, qanunvericilik bazasının, tədris, təlim və təcrübə materiallarının cəmləndiyi e-kitabxana vergi əməkdaşlarının daxili istifadəsi üçün nəzərdə tutulmuş mühüm elektron məlumat bazası hesab olunur. Kitabxana «Qanunvericilik», «Xarici təcrübə», «Vergi forumu», «Təqdimatlar», «Terminlər», «İndekslər», «Video materiallar», «Tarix» başlıqlı bölmələrdən, eləcə də «Saytın xəritəsi», «E-ünvanlar», «Nəşrlər», «Media», «Onlayn test», «Attestasiya sualları», «Mühasibat uçotu standartları» və «Əlaqə» kimi köməkçi bölmələrdən ibarətdir. Yaxın günlərdə isə kitabxananın yeni funksiyası olan «Onlayn təlim» sistemi ilə təlimlərin keçirilməsinə başlanılacaq. Bu məqsədlə artıq elektron kitabxananın «Onlayn təlim» sistemi ilə təlimlərin təşkili Qaydaları» təsdiq edilib. Qaydalar vergi əməkdaşlarının təlim tələbatlarının elektron təhsil texnologiyaları əsasında qarşılanması, təlimlərin əhatə dairəsinin daha da genişləndirilməsi, əməkdaşlara iş yerindən ayrılmadan və səmərəli şəkildə təlimləri izləmək imkanının yaradılması məqsədilə hazırlanıb.

«Onlayn təlim» sisteminin tətbiqi innovativ texnologiya əsasında interaktiv təlimlərin təşkil olunmasına, yerli və xarici mütəxəssislərin təlim prosesinə distant şəkildə təlimçi qismində cəlb olunmasına, təlimlərin keçirilməsinə sərf olunan maliyyə vəsaitlərinin effektiv istifadəsinə, insan resurslarının daha səmərəli idarə olunmasına, əməkdaşların fərdi hazırlığına və inkişafına imkan yaradacaq. Bununla təlim prosesinə qeyri-məhdud sayda iştirakçılar cəlb olunacaq, dinləyicilər üçün təlim materiallarının qabaqcadan öyrənilməsinə, tədris prosesində və əvvəlcədən mövzu ilə bağlı sual və təkliflərin təqdim olunmasına şərait yaradılacaq. Müxtəlif mövzular üzrə qısa müddətdə təlimlərin təşkili və təlimçilərin mobilliyinin təmin olunması, təlim prosesində çoxfunksiyalı elektron alətlərdən istifadə imkanlarının yaradılması vasitəsilə təlimlərin keyfiyyətinin yüksəldilməsi, iştirakçıların ezamiyyəyə göndərilməsinin minimuma endirilməsi mümkün olacaq. Qısamüddətli təlimlər üzrə vahid elektron məlumat bazasının yaradılması, eyni anda bir neçə virtual tədris otağında onlayn təlimlərin keçirilməsi, nazirliyin struktur vahid və bölmələrinin təlim tələbatlarının elektron təhsil texnologiyaları əsasında qarşılanması, təlimlərin qiymətləndirilməsinin təşkili və əldə edilən nəticələrin təlimlərin təkmilləşdirilməsində istifadə edilməsi də onlayn təlim sisteminin məqsədlərindəndir.

Onlayn təlim sisteminin strukturu iki əsas komponentdən: administrativ panel və virtual tədris otaqlarından ibarət olacaq. Administrativ panel qaydalarla müəyyən edilmiş məlumat və materialların «Onlayn təlim» sisteminə daxil edilməsinə imkan verən proqram təminatıdır və bu panelə yalnız təlim iştirakçıları daxil ola bilər. Virtual tədris otaqları isə «Davam edən təlimlər», «Növbəti təlimlər», «Bitmiş təlimlər» bölmələrindən ibarət olacaq, hər bir bölmənin daxilində müvafiq mövzular üzrə virtual tədris otaqları yaradılacaq.

«Davam edən təlimlər» bölməsində real vaxt rejimində davam edən onlayn təlimlərin siyahısı göstəriləcək. Bu bölmə üzrə tədris otaqlarına yalnız onlayn təlimin keçirilməsi barədə Nazirliyin müvafiq əmrində adları qeyd olunan dinləyicilər, müvafiq təlim üzrə koordinatorlar və təlimçi, təlim təşkilatçıları və «Onlayn təlim» sistemi üzrə tam istifadə hüququ olan digər vəzifəli şəxslər daxil ola biləcəklər.

«Növbəti təlimlər» bölməsində mövzusu və iştirakçıları nazirliyin əmri ilə rəsmiləşdirilmiş və başlanmasına müəyyən müddət qalmış onlayn təlimlərin siyahısı göstəriləcək. Hər bir virtual tədris otağında təlimin başlanmasına qalan müddət «Video yayım» yarımbölməsində əks olunacaq.

«Bitmiş təlimlər» bölməsində keçilmiş təlimlərin materialları və video arxivləri yerləşdirilmiş virtual tədris otaqlarının siyahısı göstəriləcək.

Hər bir onlayn təlim üzrə yaradılan virtual tədris otaqları: onlayn təlimin tarixi və başlanma vaxtı, funksional sahə, əmr nömrəsi, təlim materialları, təlimçilər, koordinatorlar, dinləyicilər, videoyayım, interaktiv dialoq, vergi forumuna keçid, məmnunluğun qiymətləndirilməsi yarımbölmələrindən ibarət olacaq.

Onlayn təlimlər qabaqcadan təsdiq edilmiş birillik tədris qrafiki və ya nazirliyin müvafiq struktur vahidi və bölməsinin qrafikdənkənar müraciəti əsasında təşkil ediləcək. Bəzi hallarda «Onlayn təlim» sistemindən kənar təlimlər təşkil oluna bilər. Bu, təlimin müddəti qısamüddətli təlimlər üçün nəzərdə tutulmuş günlərdən və saatlardan artıq olduqda dinləyicilərlə əyani təhsilalma formasında təlim keçilməsinə zərurət olduqda, dinləyicilərə əyani praktiki vərdişlərin izah edilməsi nəzərdə tutulduqda və qanunvericilikdə nəzərdə tutulumuş digər hallar olduqda mümkün olacaq.

**AYTƏN**

# İstifadəçilər Vergilər Nazirliyinin rəsmi internet saytının fəaliyyətindən məmnundurlar

*Vergilər Nazirliyinin rəsmi internet saytı www.taxes.gov.az populyarlığı və uğurlu fəaliyyəti ilə seçilir. Bunun nəticəsidir ki, saytın fəaliyyəti həm istifadəçilər, həm də ictimai təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin əməkdaşı Arif Ələkbərlə müsahibə nazirliyin bu istiqamətdə son fəaliyyəti və həyata keçiriləcək işlərə həsr ol-*



***- Arif müəllim, «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi tərəfindən dövlət qurumlarının informasiya açıqlığı üzrə keçirilmiş illik monitorinqin nəticələrinə görə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi yeddinci dəfə birinci yerə layiq görüldü. Bu monitorinqin keçirilmə məqsədi nədir?***

- «Multimedia» tərəfindən 2006-cı ildən keçirilən bu monitorinq «İnformasiya əldə etmək haqqında» Qanuna və beynəlxalq normalara uyğun keçirilir. Monitorinqin keçirilmə metodologiyası mərkəz tərəfindən hər il təkmilləşdirilir və builki monitorinqdə daha geniş və hərtərəfli təhlillərə yönələn parametrlərə üstünlük verilmişdi. Əsas məqsəd monitorinq prosesində saytların kəmiyyət və keyfiyyət göstəriciləri nəzərə alınmaqla onların bütövlükdə açıqlıq səviyyəsinin müəyyən edilməsi, eləcə də internet resursları vasitəsilə dövlət orqanları tərəfindən ictimai informasiyaların açıqlanması vəziyyətinin araşdırılması, hər bir dövlət qurumu üzrə ümumiləşmiş tövsiyələr hazırlanması idi.

Ümid edirik, gördüyümüz işlərin nəticəsi olaraq növbəti illərdə də birinciliyi qoruyub saxlaya biləcəyik.

***- Vergilər Nazirliyinin rəsmi internet saytında baş verən son yeniliklər nələrdən ibarətdir?***

- Sayt 2002-ci ildən fəaliyyət göstərir və bu müddət ərzində daim yenilənərək məzmunu zənginləşdirilir. Dəyişikliklər zamanı istifadəçilərin təklifləri nəzərə alınır, səhifədən istifadəni rahatlaşdırmaq üçün çoxlu işlər görülür. Bu müddət ərzində səhifənin ümumi dizaynı həm texnoloji imkanların müasirləşməsi, həm də tələbat nəzərə alınaraq üç dəfə dəyişdirilmişdir. Son belə dəyişiklik 2009-cu ildə olmuşdur. Aradan keçən müddəti nəzərə alaraq yaxın gələcəkdə saytın dizaynının növbəti dəfə yenilənməsi, habelə səhifənin Android, iOS platformalı smartfonlar, habelə planşetlər üçün əlavələrinin hazırlanması planlaşdırılır.

***- Vergi ödəyiciləri saytın daha çox hansı imkanlarından yararlanırlar? Saytda daha çox müraciət edilən bölmələr hansılardır?***

-Aylıq statistik hesabatlara görə, səhifədə ən çox «Qanunvericilik», «E-xidmətlər», «Media», «Haqqında», «Bir pəncərə», «Sual-cavab», «Bəyannamə» bölmələrinə müraciət edilir. Səhifə istifadəçilərinin 60%-i bu bölmələrdən yararlanır. Bundan başqa, səhifədə yeni istifadəyə verilmiş «Onlayn bələdçi»xidmətini də istifadəçilər böyük maraqla qarşılayıblar. Bu xidmət vasitəsilə onlar canlı rejimdə səhifə ilə bağlı istənilən sualı operatora ünvanlayaraq həmin an cavab alma imkanı əldə edirlər.

***- İstifadəçi məmnunluğu öyrənilirmi?***

- İstifadəçi məmnunluğu ilk növbədə səhifədəki əks-əlaqə xidmətləri, habelə vaxtaşırı keçirilən onlayn anket sorğuları vasitəsilə müəyyən edilir. Bundan əlavə, hazırladığımız gündəlik və aylıq hesabatlarda da rəsmi internet saytında, sosial şəbəkələrdəki səhifələrlə bağlı statistik hesabat vasitəsilə istifadəçi məmnunluğu barədə məlumat toplanır. Bu məlumatlara əsaslanaraq qeyd etmək olar ki, hər bir istifadəçi onun üçün yaradılmış internet məkanından istədiyi bütün məlumatları əldə edə bilir.

*Hər bir istifadəçi onun üçün yaradılmış internet məkanından istədiyi bütün məlumatları əldə edə bilir*

***- Saytın imkanlarının genişləndirilməsi, vergi ödəyicilərinin bu virtual məkandan daha geniş və rahat istifadə etmələri üçün hansı beynəlxalq təcrübələr tətbiq olunur və ya tətbiq olunması nəzərdə tutulur?***

- Saytın imkanları, qeyd etdiyimiz kimi, istifadəçi tələbatına uyğun olaraq daim genişləndirilir, vaxtaşırı yeniliklər və dəyişikliklər tətbiq olunur. Beynəlxalq təcrübədən yararlanmaq da hər zaman aktualdır.

Bu il saytımızda «Onlayn təlim» bölməsi istifadəyə veriləcək. Artıq bu istiqamətdə müvafiq işlər görülmüş və hazırlıq işləri yekunlaşmaq üzrədir.

***- Vergi ödəyiciləri ilə Vergilər Nazirliyi arasında münasibətlərdə sosial şəbəkələrin də ayrıca rolu var. Bu istiqamətdə aparılan işlər barədə məlumat verməyinizi xahiş edirik.***

- Vergilər Nazirliyi sosial şəbəkələrdə öz rəsmi səhifələrini yaradan və orada öz məlumatlarını aktiv şəkildə paylaşan ilk dövlət qurumlarındandır. Fəxrlə deyə bilərik ki, «Facebook»dakı rəsmi səhifəmizdə istifadəçi aktivliyi bir çox digər dövlət qurumlarından daha yüksəkdir. Onu da qeyd etmək istərdim ki, sosial şəbəkə istifadəçilərinin tələbləri rəsmi səhifə istifadəçilərinin tələblərindən çox fərqlənir. Buradakı məlumatlar təbliğat, təşviqat, məlumat xarakterli olmaqla bərabər, həm də rəsmiyyətdən müəyyən qədər kənar olmalıdır. Bunu nəzərə alaraq biz yalnız foto və mətn xarakterli məlumatlarla kifayətlənmirik. Şöbəmizin əməkdaşı Günel Mahmudova vergilərlə bağlı müxtəlif video-süjetlər, müəllif proqramları («FACE-Vizit», «Onlayn-müfəttiş», «Tanınmışlardan ismarıc var») hazırlayıb istifadəçilərimizə təqdim edir.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**

# İKT sahəsində beynəlxalq təcrübə öyrənilir

Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən edilmiş əsas hədəfə çatmaq üçün növbəti on ildə qeyri-neft sektorunun inkişafı hesabına ümumi daxili məhsulun 2 dəfə artırılması, informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun həcminin 4-4,5 dəfə genişləndirilməsi, İKT-nin iqtisadi potensialının gücləndirilməsi, cəmiyyətin İKT ehtiyaclarının ödənilməsi məqsədi qarşıya qoyulub. Bu məqsədlə 2012-ci ilin martında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (indiki Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin - RYTN) tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu (İTİDF) yaradılıb. 2014-cü ildən tam fəaliyyətə başlayan fondun məqsədi İKT sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, innovativ sahibkarlıq fəaliyyətini dəstəkləmək, intellektual biznes, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək, bu sahəyə yerli və xarici investisiyaları cəlb etməkdən ibarətdir.

İTİDF-nin rəhbəri Elçin Zeynalov təmsil etdiyi qurumun fəaliyyəti barədə AZƏRTAC-a məlumat verib.

***İnformasiya və biliklərə əsaslanan iqtisadiyyat inkişaf etdirilir***

İnformasiya və biliklərə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsi, rəqabət qabiliyyətli və ixracyönlü yüksək texnologiyalar sektorunun inkişafı, investisiya cəlbediciliyinin yüksəldilməsi, ölkədə dünya səviyyəsinə uyğun elmtutumlu və yüksək texnoloji məhsulların yaradılması, onların tətbiqini təmin edən innovasiya sisteminin formalaşdırılması əsas məqsəd kimi müəyyən edilib. Qeyd olunan hədəflərə çatmaq üçün fond İKT sahəsində elmi-tədqiqat işlərinin genişlənməsi, innovativ fəaliyyətin stimullaşması və istehsal yönümlü fəaliyyətin dəstəklənməsi kimi vacib məsələlərə xidmət edir. İTİDF ölkə iqtisadiyyatında İKT sektorunun inkişafı ilə bağlı real nailiyyətlərin əldə olunması üçün sərəncamında olan vəsaitlər vasitəsilə özünün üç əsas maliyyə mexanizmindən istifadə edir.

Birinci mexanizmə görə, müsabiqə yolu ilə innovativ və tətbiqi elmi-texniki layihələrinin qrant maliyyələşməsidir ki, artıq fond tərəfindən iki qrant müsabiqəsi keçirilib. İkinci mexanizmə əsasən, müvəkkil kredit təşkilatları vasitəsilə bu sahədə fəaliyyət göstərən sahibkarlara aşağı faizli, güzəştli şərtlərlə kreditlər verilməsidir. Sahibkarlara kredit vəsaiti 10 mindən 5 milyon manatadək 10 il müddətinə illik 5 faiz dərəcəsi ilə verilir. Üçüncü mexanizmə görə isə, müəssisələrin səhmlərinin və ya digər qiymətli kağızlarının əldə edilməsi yolu ilə bu müəssisələrə müddətli investisiya qoyuluşudur.

Fond yuxarıda qeyd olunan maliyyə mexanizmləri vasitəsilə ölkədə müasir İKT sənayesinin təşəkkül tapacağı, innovativ startapların, həmçinin sahə üzrə iri layihələri həyata keçirəcək sahibkarlıq subyektlərinin ölkədə «bilik iqtisadiyyatı»nın qurulmasını əsas məqsəd kimi müəyyən edib.

***Fond informasiya-kommunikasiya texnologiyaları sahəsində beynəlxalq təcrübəni öyrənir***

İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu İKT sahəsində beynəlxalq təcrübəni öyrənmək məqsədilə müxtəlif ölkələrin və nüfuzlu təşkilatların nümayəndə heyətləri ilə görüşlər keçirir. Fondun əməkdaşları beynəlxalq tədbirlərdə fəal iştirak edir. Türkiyə, Böyük Britaniya, Finlandiya, Macarıstana və Almaniyaya səfərlər təşkil olunub, orada fəaliyyət göstərən analoji fondlar və təşkilatların təcrübəsi öyrənilir.

Fondun təşəbbüsü ilə Böyük Britaniyanın «MTI» şirkəti tərəfindən təsis olunmuş «TransTech Capital» (TTC) ölkənin aparıcı təhsil və elmi tədqiqat mərkəzlərində görüşlər keçirirlər. İTİDF bu qurumla Azərbaycanda fəaliyyət göstərən ali məktəblər və elmi tədqiqat institutları ilə İKT sahəsində vençur maliyyələşdirilməsini və texnologiyaların transferini həyata keçirən qabaqcıl şirkətlərlə əməkdaşlıq qurmaqda vasitəçilik edir. TTC Azərbaycanda elm əsaslı potensialın qiymətləndirilməsini və potensialı yüksək olan qurumlarda Texnoloji Transfer mərkəzlərinin yaradılmasını, innovativ layihələrin maliyyələşdirilməsini təklif edib.

***Azərbaycanda innovativ iqtisadiyyat və intellektual biznes mühiti formalaşır***

Ölkədə innovativ iqtisadiyyatın və intellektual biznesin yaradılması məqsədilə elm-təhsil-biznes arasındakı əlaqələr gücləndirilməli, tətbiqi elmi araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmlər yaradılmalıdır. İnnovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədilə müvafiq qanunvericilik bazası yaradılmalıdır. Elmtutumlu sahələrin və innovativ iqtisadiyyatın inkişafı üçün əlverişli mühit olmalıdır. Bu istiqamət üzrə isə ən çox gözlədiyimiz odur ki, elmin nəticələri istehsalata asan yol tapsın, elmə investisiya qoyuluşu artsın. Eyni zamanda, elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resursları ilə yanaşı, digər mənbələrin də cəlb olunması stimullaşdırılacaq ki, bu da, son nəticədə elmi fəaliyyətlə məşğul olan işçilərin, o cümlədən gənclərin sosial müdafiəsini gücləndirəcək və «beyin axını»nın qarşısını alacaq.

***Elmtutumlu məhsulların, texnologiyaların tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılır***

İnnovativ sahibkarlığın inkişaf etdirilməsi ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlər gücləndirilir. Elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılır. Ölkədə fəaliyyət göstərən Yüksək Texnologiyalar Parkının (YTP) əsas məqsədi İKT sektoru üzrə elm və istehsal sahələri arasında bir körpü yaratmaqdır. YTP-də fəaliyyət göstərən rezidentlər 7 il ərzində əlavə dəyər, gəlir, torpaq və əmlak vergisindən azad olunurlar. İKT sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri xaricdən idxal olunan texnika və avadanlığa görə dövlət gömrük rüsumundan tam azad edilirlər. Həmçinin YTP-yə xarici investisiyaları cəlb etmək başlıca məqsəddir.

Prezident İlham Əliyevin 2015-ci il 26 fevral tarixli Fərmanı ilə Mingəçevir Yüksək Texnologiyalar Parkı yaradılıb. Artıq Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası təsdiq edilib. Beləliklə nomenklaturada qeyd edilən və ölkəyə idxal edilən qurğular, hissə və ləvazimatlar gömrük rüsumlarından 7 il müddətinə azad olunacaq.

Hazırda İKT üzrə kadr hazırlığı işi də təkmilləşdirilir. Yüksək ixtisaslı mütəxəssislərə və elmi kadrlara artan tələbatın ödənilməsi məqsədilə ölkədəki ali təhsil ocaqlarında təhsilin elmi tədqiqatlar və innovasiyalarla sıx inteqrasiyasına əlverişli mühitin yaradılması istiqamətində işlər görülür. Dünyanın qabaqcıl təhsil ocaqları ilə əlaqələr genişləndirilir, həmçinin Azərbaycandan kənara «beyin axını»nın qarşısının alınması ilə əlaqədar müəyyən tədbirlər həyata keçirilir.




# Hüquqşünaslar üçün təlim

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən Berlin şəhərində «Hüquqşünas fəaliyyətində islahatlar - hüquq islahatları üçün hüquqi dialoq» mövzusunda təlim təşkil edilmişdir.

Cənubi Qafqaz ölkələrindən seçilmiş hüquqşünasların iştirak etdikləri tədbirin əsas məqsədi Almaniya Federativ Respublikasının hüquq sistemi və qanunvericiliyi fonunda Cənubi Qafqaz ölkələrindəki qanunvericiliyin müqayisəsi və həmin ölkələrin hüquqşünasları arasında fikir mübadiləsi aparılmasını təşkil etmək idi.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin, Borcların alınması şöbəsinin hüquqşünası İradə Məmmədxanlı təmsil etmişdir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi ödəyicisinin öhdəlikləri

***Kameral vergi yoxlaması zamanı vergi orqanı tərəfindən vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edilmədiyi halda nə kimi hüquqi nəticələr baş verir?***

Vergi Məcəlləsinin 37.1-ci maddəsində qeyd olunub ki, kameral vergi yoxlaması vergi orqanı tərəfindən yerlərə getmədən vergi orqanında olan, vergi ödəyicisi tərəfindən təqdim edilən vergi hesabatları, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan digər sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında keçirilir.

Bu Məcəllənin 37.3-cü maddəsinə əsasən, kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər.

Vergi orqanı tərəfindən vergi ödəyicisindən kameral vergi yoxlaması zamanı əlavə məlumat, sənəd və izahat tələb edilmədiyi halda Vergi Məcəlləsinin 37.6-cı maddəsi səyyar vergi yoxlaması keçirilən zaman vergi ödəyicisinə kameral yoxlama zamanı müəyyən edilə bilən səhvləri düzəltmək hüququ verir: həmin maddədə qeyd olunur ki, kameral vergi yoxlaması zamanı vergi orqanı bu Məcəllənin 37.3-cü və 37.4-cü maddələrində müəyyən edilmiş qaydalara riayət etmədikdə, vergi ödəyicisinin səyyar vergi yoxlaması keçirilən zaman vergi orqanının təklifi əsasında həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi səhvləri (o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması, vergi məbləğlərinin azaldılması və sair) 30 gün müddətində düzəltmək (aradan qaldırmaq) hüququ vardır və o, həmin müddət bitənədək yol verdiyi və kameral yoxlama zamanı müəyyən edilə bilən vergi qanunvericiliyinin pozulmasına görə (faizlərin ödənilməsi istisna olmaqla) məsuliyyət daşımır. Vergi ödəyicisinin məsuliyyət daşımaması üçün səyyar vergi yoxlamasının keçirildiyi vaxta qədər vergi ödəyicisi tərəfindən yol verilmiş səhv kameral yoxlama ilə müəyyən edilə bilən səhv olmalı və vergi orqanı kameral vergi yoxlaması zamanı Vergi Məcəlləsinin 37.3-cü və 37.4-cü maddələrində müəyyən edilmiş qaydalara riayət etməmiş olmalıdır. Bu hallar mövcud olduqda səyyar vergi yoxlamasını həyata keçirən vergi orqanının vəzifəli şəxsi vergi ödəyicisinə yol verdiyi vergi qanunvericiliyinin pozulması halını sərbəst şəkildə aradan qaldırmasını təklif etməlidir. Vergi ödəyicisi vergi orqanının təklifindən 30 gün müddətində yol verdiyi vergi qanunvericiliyinin pozulması halını aradan qaldırdıqda, hesablanmış faizlərin ödənilməsi istisna olmaqla, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət daşımır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Avtonəqliyyat xidməti göstərən şəxslər bilməlidirlər ki...

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və ya həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləri hesab olunurlar. Bu şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyektidir.

***Verginin dərəcəsi***

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yükdaşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq olaraq sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən olunur:

| Daşınma növü | Ölçü vahidi | Verginin aylıq məbləği (manatla) |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə | 1 oturacaq yeri üçün | 1,8 manat |
| Taksi ilə sərnişin daşınması | 1 nəqliyyat vasitəsi üçün | 9 manat |
| Yük daşınması | yükgötürmə qabiliyyəti üçün (hər tona) | 1 manat |

Sadələşdirilmiş verginin məbləği sərnişin və yük daşınmasının həyata keçirildiyi ərazidən asılı olaraq cədvəldə göstərilmiş vergi məbləğinə xüsusi əmsallar tətbiq edilməklə müəyyən edilir. Daşımalar Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında həyata keçirildikdə bu əmsal 2-yə, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı şəhəri istisna olmaqla) həyata keçirildikdə 1,5-ə bərabər olur.

Daşıma digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında həyata keçirildikdə (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu istisna olmaqla) əmsal tətbiq edilmir.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yük götürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə həmin göstəricilər Daxili İşlər Nazirliyi tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

***Verginin hesablanması qaydası və ödəmə müddəti***

Avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yük daşımalarına görə aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün cədvəldə göstərilmiş sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanır və dövlət büdcəsinə ödənilir.

***Məsələn:*** Oturacaqlarının sayı 17 ədəd olan mikroavtobusunuzla Bakı şəhərində sərnişin daşınmasını həyata keçirirsiniz. Bu zaman ödəyəcəyiniz verginin aylıq məbləği aşağıdakı kimi hesablanacaq:

Oturacaqların sayı 17 ədəd olduğundan sadələşdirilmiş verginin aylıq məbləği 17 x 1,8 = 30,6 manat olacaq və Bakı şəhərində fəaliyyət göstərdiyinizə görə ödəyəcəyiniz sadələşdirilmiş verginin aylıq məbləği 30,6 x 2= 61,2 manat olacaqdır.

Bundan sonra vergi ödəyicisi təqvim ayının sonunadək ərizə ilə birlikdə sadələşdirilmiş verginin tam məbləğdə ödənilməsini təsdiq edən bank ödənişi sənədini Nəqliyyat Nazirliyinə təqdim etməklə öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» alır.

Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir. «Fərqlənmə nişanı» vergi ödəyicisinin ərizəsinə əsasən 2 iş günündən gec olmayaraq verilir.

Avtonəqliyyat xidməti göstərən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

Sadələşdirilmiş verginin ödənilməsinə avtonəqliyyat vasitəsinin sahibi, nəqliyyat vasitəsi vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edildikdə isə vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyır. Hüquqi şəxs özünə məxsus avtomobil nəqliyyatı vasitələri ilə daşımaları həyata keçirdikdə sadələşdirilmiş vergi onun tərəfindən ödənilməlidir.

Fəaliyyəti yalnız avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarından ibarət olan vergi ödəyiciləri vergi orqanlarına bəyannamə vermirlər.

***«Fərqlənmə nişanı»nı kimlər almalıdır?***

Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərinin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün heç bir haqq ödənilmədən «Xüsusi fərqlənmə nişanı» alınır. «Xüsusi fərqlənmə nişanı» vergi ödəyicisinin müraciətindən sonra 5 iş günü ərzində Nəqliyyat Nazirliyi tərəfindən verilir.

Bu nişanı almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı 1 iş günü əvvəl bu nişanı geri qaytarmalıdır. Vergi ödəyicisi işçi heyətini və özünə məxsus yükləri daşımaq üçün yeni avtonəqliyyat vasitəsi aldıqda bu nəqliyyat vasitəsi müvafiq qaydada qeydiyyata alındıqdan sonra 5 gün ərzində Nəqliyyat Nazirliyinə bu barədə müəyyən edilmiş formada məlumat təqdim edir. «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı» aşağıdakı məlumatları özündə əks etdirir:

- vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı;
- vergi ödəyicisinin VÖEN-i;
- nişanın qüvvədə olma müddəti;
- avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı;
- avtonəqliyyat vasitəsində oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti;
- daşımanın həyata keçirildiyi ərazi;
- ödənilmiş verginin məbləği.

Avtomobil nəqliyyatı vasitələri ilə daşımaları həyata keçirən vergi ödəyiciləri bu fəaliyyətdən başqa digər fəaliyyətlə məşğul olurlarsa, əldə olunan gəlir və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır və bu fəaliyyət növü üzrə mənfəəti (zərəri) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir.

Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı» alınmır.

Sahibləri belə avtonəqliyyat vasitələri barədə Nəqliyyat Nazirliyinə məlumat verirlər.

«Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Rəşad SADIQOV**

# Mobil nömrələrin satışı, daşınması və addan-ada keçirilməsi «E-hökumət» portalı üzərindən aparılacaq

Nazirlər Kabinetinin yeni qərarına əsasən, telefon nömrələrinin (Sim kartların) satış qaydalarında mühüm dəyişikliklər edilib. Hazırda yeni qərara uyğun olaraq, nömrə satışı zamanı yol verilən bir çox pərakəndə proseslərin sistemləşdirilməsi, eyni zamanda, mövcud qüsurların aradan qaldırılması üzrə tədbirlər görülür. Bu məqsədlə, tezliklə mobil nömrələrin satışı, nömrələrin digər operatora daşınması və nömrələrin addan-ada keçirilməsi prosesi tamamilə avtomatlaşdırılaraq «Elektron hökumət» portalı üzərindən həyata keçiriləcək.

Portalın operatoru Məlumat Hesablama Mərkəzindən verilən məlumata görə, mobil operatorlar üzrə abunəçi bazaları fərdi identifikasiya nömrəsinə (FİN) uyğunlaşdıqdan sonra portal üzərindən təqdim edilən sosial xidmətlərin çeşidi və keyfiyyəti artacaq. «E-hökumət» portalı üzərindən qanunvericiliyə uyğun olaraq qurumlararası informasiya mübadiləsinin aparılması mümkün olacaq.

Bununla yanaşı, portal vasitəsilə vətəndaşlara istənilən dövlət qurumlarının bildirişlərini (məhkəmə, şəxsiyyət vəsiqəsinin müddətinin bitməsi, banklar, kommunal borclar, rabitə borcları, cərimələr və sair) göndərmək imkanı yaradılacaq. «E-hökumət» portalı üzərindən formalaşan «Şəxsi kabinetlər»də abunəçinin mobil nömrələri barədə məlumatlar əks olunacaq. Eyni zamanda, portala onlayn qeydiyyat zamanı mobil nömrənin istifadəçinin öz adına olmaması və ya qrammatik səhvlər səbəbindən yaranan problem aradan qalxacaq.

# Yeni mobil ödəniş vasitəsi istifadəyə verildi




MilliKart tərəfindən mobil cihazlar vasitəsilə ödənişlər aparmaq üçün CİB proqram təminatı istismara verilmişdir. Bu mobil tətbiqin köməyi ilə bir çox xidmətlərin haqqını (mobil telefon, stasionar telefon xidmət haqlarını), kommunal ödənişləri (Azəriqaz, Azərişıq və Azərsu), ölkəmizdə fəaliyyət göstərən bütün internet provayderlərinin, kabel televiziyaların xidmət haqlarını, Dövlət Yol Polisi və Vergilər Nazirliyinin ödənişlərini onlayn ödəmək mümkündür. Yeni proqram təminatı pul köçürmələri aparmağa da imkan yaradır. CİB vasitəsilə bir kart hesabından digərinə sürətli, asan və etibarlı şəkildə pul köçürmək mümkündür. Limitsiz sayda istənilən yerli və ya beynəlxalq bank tərəfindən buraxılmış Visa və Mastercard beynəlxalq ödəniş sistemlərinin kartlarını əlavə edə biləcəyiniz daim yenilənən bu mobil tətbiqlə həyata keçirəcəyiniz əməliyyatlar ödənişsizdir.

CİB yeganə proqram təminatıdır ki, vətəndaşlar bütün bank hesablarını bir tətbiqdə cəmləşdirə bilərlər. CİB mobil qurğunun əməliyyat sisteminə yüklənən mobil bankçılıq əlavəsi və server əlavəsinə əsaslanır. Mobil əlavə əsas mobil platformalarını dəstəkləyir və bazarda olan qurğuların 95%-ni əhatə edir.

Müasir dövrdə insanları narahat edən təhlükəsizlik və etibarlılığın həllinə CİB 100% zəmanət verir. Burda əlavənin yüklənmə ölçüləri təxminən 200kB : 3000kB diapazonundadır, bu da öz növbəsində əməliyyatların ən effektiv yol ilə həyata keçməsini təmin edir. Bütün məlumatlar PCI DSS standartına uyğun olaraq saxlanılır. Kart məlumatları, ödəniş və köçürmə tarixçəsi VISA/MasterCard beynəlxalq ödəniş sistemlərinin bütün təhlükəsizlik tələbləri və qaydalarına uyğun olaraq qorunub saxlanılır. Əgər istifadəçi CİB-ə qoşulmuş mobil telefonunu itirsə, mümkün qədər tez zamanda texniki dəstək xidməti ilə əlaqə saxlayıb xidməti, sonra mobil operatora müraciət edib telefonu bloka salmalıdır.

Təqdim edilən xidmətlərdən istifadə etmək üçün proqramı mobil cihaza yükləyib qeydiyyatdan keçmək tələb olunur. Qeydiyyatdan keçmək sadə və pulsuzdur. Mobil telefon nömrəsi qeydiyyata alındıqdan sonra sistem tərəfindən SMS vasitəsilə müvafiq sahəyə daxil etmək üçün təsdiq kodu göndərilir. Sonrakı mərhələdə kart məlumatları daxil edilərək kart proqrama əlavə edilir. Bir ay sınaq müddəti üçün xidmətdən pulsuz istifadə təklif olunur. Sınaq müddəti başa çatdıqdan sonra hər əlavə edilən karta görə ayda cəmi 20 qəpik xidmət haqqı tutulacaqdır.

Kartı əlavə etmək üçün isə kartın üzərində nömrəsi (16 rəqəm), AY/İL formatında etibarlılıq müddəti və CVV2/CVC göstərilmişdir. Sonuncu göstəricilər kartın arxa tərəfində, maqnit zolağının altında yerləşir və üç rəqəmdən ibarətdir.

Bütün məlumatlar «Kart əlavə et» ekranındakı müvafiq sahələrə daxil edilir və vətəndaşa SMS vasitəsilə 0,01 AZN məbləğində əməliyyatın təsviri və «CIB****CODE» formatında kod göndərilir. Həmin kod müvafiq sahəyə daxil edilir.

Əvvəlcədən yaradılmış şablonlar növbəti ödənişləriniz və pul köçürmələrinizi tez və rahat şəkildə həyata keçirməyə imkan verir. Onu da qeyd edək ki, ödənişlərin əksəriyyəti, dövlət ödənişləri və pul köçürmələri istisna olmaqla, heç bir komissiyaya tabe deyil, təhlükəsizlik məqsədi ilə bütün ödənişlərin tarixçəsi saxlanılır. CİB mobil proqram təminatı vətəndaşın şəxsi məlumatlarının gizliliyini və təhlükəsizliyini təmin etməklə 7/24 zaman ərzində xidmət göstərir. Yaranan hər bir problem və anlaşılmazlıqla bağlı isə support@cib.az - http://cib.az və *8893 nömrəli telefonla texniki dəstək xidməti aktivdir.

MilliKartın yaratdığı yeni CİB mobil proqram təminatı mobil qurğulardan pul köçürmələr aparılmış əməliyyatların detallarına baxmağa imkan verən yeni və müasir həyatımızda hər birimiz üçün faydalı olan mobil tətbiqdir.

**Fəxriyyə İKRAMQIZI**

# Torpaqların sənədləşdirilməsi bələdiyyə vergilərinin yığımında mühüm əhəmiyyət daşıyır

Avqustun 14-də «Əmlak məsələləri Dövlət Komitəsinin torpaq münasibətlərinin tənzimlənməsi və torpaq bazarının təşkilində aidiyyəti dövlət qurumları və bələdiyyələrlə fəaliyyətinin koordinasiyası» mövzusunda İşgüzar Forum keçirilmişdir. Tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbərliyi, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin, Bakı şəhəri və rayon icra hakimiyyətlərinin rəhbər vəzifəli işçiləri, bələdiyyə sədrləri və üzvləri, ictimai təşkilatlar və KİV nümayəndələri iştirak ediblər.



Qeyd edək ki, bu səpkili tədbirlər iyulun əvvəlindən başlanılıb və indiyədək Şirvan, Ucar, Şamaxı, Sumqayıt, Mingəçevir, Gəncə, Qazax, Bərdə, Beyləqan və Xaçmazda keçirilib.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rafiq Cəlilov tədbirdə çıxış edərək bildirmişdir ki, ölkəmizdə torpaq münasibətlərinin vahid mərkəzdən tənzimlənməsi və idarəçiliyində innovativ üsulların, habelə torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətində müasir yanaşmalar və yeni mexanizmlərin tətbiqi istiqamətində ardıcıl tədbirlər görülür. Belə forumların keçirilməsi isə müxtəlif qurumlar arasında koordinasiya işlərinin daha sıx həyata keçirilməsinə imkan yaradır. Dövlət torpaqlarının mühafizəsi, təyinatı üzrə istifadəsi, əsassız istifadə hallarının müəyyən edilməsi və qarşısının alınması, bu sahədə nəzarət tədbirlərinin görülməsi ilə bağlı artıq torpaq müfəttişləri Bakı şəhərində, respublikanın digər regionlarında mütəmadi monitorinq və reydlər keçirirlər.

Forumda torpaqların kateqoriyasından asılı olaraq istifadəsi, təyinatının dəyişdirilməsi qaydaları izah olunub. Dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid torpaqların kateqoriyası, təyinatına zidd olaraq torpaq sahələrində tikintilərin aparılmasının qarşısının alınması barədə görülən tədbirlərdən bəhs olunub.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə öz çıxışında bildirib ki, bələdiyyələrin vergi yığımı məsələsində torpaqların qanunauyğun şəkildə düzgün sənədləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Mövcud problem bələdiyyələrin mülkiyyətinin idarə olunması ilə əlaqədar institusional tədbirin formalaşdırılması zərurətini ortaya çıxarır. Artıq bu gün mülkiyyətin idarə olunması ilə bağlı yaranan problemin həlli yetişmək üzrədir. Əmlak Məsələləri Dövlət Komitəsi bununla əlaqədar müvafiq tədbirlər həyata keçirir və yaxın gələcəkdə elektron sistemlər vasitəsilə, «bir pəncərə» prinsipi ilə bu işlərin görülməsi öz səmərəsini verəcək.

M. Səlimzadənin sözlərinə görə, bələdiyyələrin maliyyə mənbələrinin istifadəsi sahəsində, insanlarla münasibətlərinin tənzimlənməsində müsbət irəliləyişlər olmalıdır. Azərbaycan bələdiyyəsinin yaradıldığı 15 il ərzində yerli özünüidarə sahəsində xeyli təcrübə qazanılıb: «Təcrübə var, sadəcə olaraq, inkişaf prosesini davam etdirmək üçün hüquqi çərçivədən səmərəli istifadə etmək lazımdır. Təbii ki, bu gün maliyyə mənbələrindən istifadədə keçid dövrünü yaşayırıq. Bu keçid dövründə çətinliklər də var».

İşgüzar Forumda torpaqların mühafizə zonaları ilə qanunvericiliyə riayət olunması məsələlərinə də toxunulub. Dəmir yolu, avtomobil yolları, elektrik xətləri, qaz təchizatı, ixrac neft boru və su mühafizə zonalarının sərhədləri, sahil mühafizə zolaqları barədə məlumat verilmişdir. Bildirilmişdir ki, bu sahədə ən çox rast gəlinən problemlər torpaqlardan təyinatı üzrə olmayan istifadə, özbaşına tikililər, eləcə də mühafizə zonalarında qanunsuz tikililərin inşa edilməsidir. Bəzi hallarda vətəndaşlar qanunvericiliyi bilərəkdən pozur, bəzən isə mühafizə zonaları ilə bağlı qadağa və tələblərdən məlumatsız olurlar. Nazirlər Kabinetinin mühafizə zonalarının müəyyən edilməsi ilə bağlı müvafiq qərarları mövcuddur.

Zona üzrə müəyyən edilmiş rejimlə, torpaqların tamamilə təsərrüfat dövriyyəsindən çıxarılması nəzərdə tutulan hallar istisna olmaqla, ərazisində mühafizə zonası müəyyən edilən torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaq sahəsi üzərində hüquqlardan məhrum edilmirlər. Mühafizə zonasının hüdudlarında torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri bu zonalar üçün təsdiq edilmiş qaydalara əməl etməyə borcludurlar.

Forumda müzakirə mövzularından biri də torpaq bazarının təşkilinə həsr olunub. Qeyd edilib ki, torpaq bazarı torpaq sahələrinin alqı-satqısı, girov qoyulması, bağışlanması, habelə mülkiyyət, istifadə və icarə hüquqlarının dəyişməsi ilə bağlı yaranan hüquqi və iqtisadi münasibətləri tənzimləyir. İşgüzar forumda torpaq münasibətlərinin tənzimlənməsində mövcud çətinliklər də müzakirə olunub.

Forumun yekununda komitə ilə digər əlaqəli qurumların birgə fəaliyyəti istiqamətində həyata keçiriləcək zəruri tədbirlər barədə məlumat verilib. Qeyd olunub ki, komitə ilə bələdiyyələr və aidiyyəti dövlət qurumları ilə fəaliyyətin koordinasiyası torpaqların dövlət idarəetməsi, torpaqlardan düzgün istifadə və nəzarət, torpaq bazarının təşkili kimi məsələlərə öz töhfəsini verəcək, səmərəli idarəetmə metodlarının və müasir yanaşmaların kompleks tətbiqinə müsbət təsir göstərəcək.

**Fəxriyyə İKRAMQIZI**

# İlin sonuna ölkədə orta illik inflyasiya birrəqəmli səviyyədə olacaq

«2015-ci ilin ilk yarısında ölkədə inflyasiya birrəqəmli səviyyədə qorunmuşdur. Məcmu tələbin əsas komponentləri üzrə müsbət dinamika şəraitində ölkədə iqtisadi artım, əsasən, qeyri-neft sektoru hesabına baş vermişdir. Daxili inflyasiyanın ticarət tərəfdaşı ölkələrindəki orta inflyansiyadan aşağı olması və manatın çoxtərəfli məzənnəsinin ucuzlaşması idxalı əvəzləyən və ixrac sahələrinin inkişafını stimullaşdırmaqla iqtisadi artıma əlavə impulslar vermişdir».

Bu barədə Mərkəzi Bankın «Pul siyasəti icmalı»nın 2015-ci ilin ilk altı ayının yekunlarına həsr olunmuş növbəti sayında qeyd edilib. Sənəddə qeyd edilir ki, 2015-ci ilin birinci yarısında Mərkəzi Bank qlobal iqtisadiyyatda, dünya enerji bazarlarında və tərəfdaş ölkələrdə baş verən proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsirlərinin güclənməsi şəraitində fəaliyyət göstərmişdir.

Yanvar-iyun aylarında ölkənin valyuta ehtiyatlarının zəruri həcmdə qorunması təmin edilmişdir. Mürəkkəb qlobal iqtisadi mühit zəminində Mərkəzi Bank özünün pul və məzənnə siyasətini makroiqtisadi və maliyyə sabitliyinin qorunması, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədləri çərçivəsində həyata keçirmişdir.

***Xarici iqtisadi əlaqələr***

İcmalda həmçinin qeyd edilmişdir ki, xarici sektor üzrə proseslər dünya əmtəə bazarındakı konyuktur və əsas ticarət tərəfdaşlarındakı iqtisadi vəziyyətin təsiri altında getmişdir. «Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2015-ci ilin ilk yarısında xarici ticarət dövriyyəsi 10,9 mlrd. dollar təşkil etmişdir ki, bunun da 6,2 mlrd. dolları ixracın, 4,7 mlrd. dolları isə idxalın payına düşür. Xarici ticarət balansının profisiti 1,5 mlrd. ABŞ dolları olmuşdur. İxrac idxalı 32,6% üstələmişdir. İxracın 61%-i Avropa İttifaqı (Aİ) ölkələrinə, 3,9%-i isə MDB ölkələrinə yönəlmişdir. İdxalın isə 28,2%-i Aİ-nin, 22%-i MDB-nin, 13%-i Türkiyənin, 12%-i ABŞ-ın payına düşür. Cari ilin ilk yarısında əmtəə ixracı ötən ilin müvafiq dövrünə nəzərən 44,6% azalmışdır. Bu azalma, əsasən, ixracda əhəmiyyətli paya malik neft-qaz sektoru üzrə baş vermişdir. İxracın dəyəri xam neft üzrə 50,7%, neft məhsulları üzrə 16,4% və təbii qaz üzrə 26,7% azalmışdır. Kimya sənayesi məhsulları, alüminium və ondan hazırlanan məmulatların ixracında isə yüksək artım müşahidə olunmuşdur. Kimya sənayesi məhsullarının ixracı 2,6 dəfə, alüminium ixracı 11,9% artmışdır. Meyvə-tərəvəz ixracında da artım qeydə alınmışdır. Əmtəə idxalı birinci yarımillikdə ötən ilin müvafiq dövrünə nisbətən 13,6% artmışdır. Dövlət sektoru üzrə idxal 12,6% azalmışdır. Bir sıra məhsullar üzrə idxalın azalması ölkədə yerli istehsalın genişlənməsi ilə izah edilir».

***Qeyri-neft sənayesində artım tempi davam edib***

2015-ci ilin birinci yarısında ümumi daxili məhsul məcmu tələbə uyğun olaraq artmışdır. ÜDM real ifadədə 5,7% artaraq nominal olaraq 26,3 mlrd. manat təşkil etmişdir. ÜDM-in artımı, əsasən, qeyri-neft sektoru hesabına baş vermişdir. Neft sektorunda 1,3%, qeyri-neft sektorunda isə 9,2%-lik artım qeydə alınmışdır. ÜDM-in 67%-i qeyri-neft sektorunun payına düşmüşdür və iqtisadiyyatın bu sektoru ümumi artıma 5,2 faiz bəndi artırıcı töhfə vermişdir.

İlk altı ay ərzində qeyri-neft sektorunun bütün sahələrində artım müşahidə edilmişdir. Sahələr arasında ən yüksək artım tempi qeyri-neft sənayesi, habelə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində qeydə alınmışdır.




***İnflyasiya məqbul səviyyədə qorunmuşdur***

Sənəddə qeyd edilir ki, 2015-ci ilin birinci yarısında nominal effektiv məzənnə, inflyasiya gözləntiləri və ticarət tərəfdaşlarında yüksək inflyasiya qiymətlərə artırıcı, mövsümi amillər, pul bazası və dünya ərzaq qiymətlərinin dəyişimi isə azaldıcı təsir göstərmişdir. Xarici ticarət tərəfdaşı olan ölkələrdə orta illik inflyasiya 8,2% (qeyri-neft idxal çəkili orta) təşkil etmişdir ki, bu da Azərbaycandakı inflyasiyadan 4,7 faiz bəndi çoxdur. Beynəlxalq Valyuta Fondunun proqnozları əsasında aparılmış hesablamalara görə, 2015-ci ilin yekunu üzrə əsas ticarət tərəfdaşlarında orta illik inflyasiya 7,9% təşkil edəcəkdir.

2015-ci ilin yanvar-may aylarında ölkəyə idxal olan malların qiyməti ötən ilin müvafiq dövrünə nəzərən 0,9% artmışdır. Bütün əmtəələr üzrə ixrac olunan məhsulların qiymətləri isə 45,5% azalmışdır. Qiymət azalması, əsasən, qlobal neft bazarında qiymətlərin kəskin aşağı düşməsi ilə əlaqədar olmuşdur. Mərkəzi Bank tərəfindən aparılmış model hesablamalarına görə, ilin sonuna ölkədə orta illik inflyasiya birrəqəmli səviyyədə olacaqdır. Mərkəzi Bank tərəfindən aparılan monitorinqlər də son aylarda əksər sektorlar üzrə qiymət gözləntilərinin azaldığını göstərir.

***Valyuta bazarı***

2015-ci ilin ilk yarısında valyuta bazarının ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən çox artmışdır. Valyuta bazarında əməliyyatların 89%-i ABŞ dollarında, qalan 11%-i isə digər valyutalarda aparılmışdır. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə ABŞ dolları ilə əməliyyatların həcmi 2 dəfə, avro ilə əməliyyatların həcmi isə 2,3 dəfə artmışdır. İlk yarımillikdə valyuta bazarı üzrə dövriyyədəki artım, əsasən, birinci rübdəki proseslərlə əlaqədardır: ötən ilin eyni dövrü ilə müqayisədə dollar ilə aparılan valyuta əməliyyatlarının dövriyyəsinin həcmi birinci rübdə 2,4 dəfə artdığı halda, ikinci rübdə bu artım 1,6 dəfə olmuşdur.

Nağd xarici valyutaya tələbin artması da əsasən birinci rübdə baş vermişdir: ilk yarımillikdə xalis satılan ABŞ dollarının 76%-i, avronun isə 56%-i birinci rübdə satılmışdır.

2015-ci ilin ilk yarısında manatla pul bazası 35% azalaraq 7 mlrd. 487 mln. manat təşkil etmişdir. Yarım il ərzində manatla geniş pul kütləsi 37% azalaraq 10 mlrd. 992 mln. manat təşkil etmişdir.

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinə **7,8 milyard manat** vəsait daxil olmuş, büdcədən 8,6 milyard manat vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 770,9 milyon manatlıq kəsir ümumi daxili məhsulun **2,9%-nə** bərabər olmuşdur. Büdcə xərclərinin **4 milyard manatı** iqtisadiyyatın inkişafına, **1 milyard manatı** sosial müdafiə və sosial təminata, **945,4 milyon manatı** isə təhsilə və səhiyyəyə yönəldilmişdir.
- Yanvar-iyul aylarında Azərbaycanda əsas kapitala **9 milyard 368,5 milyon manat** məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə **3,5%** çox vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin **6 milyard 259,6 milyon manatı** və ya **66,8%-i** məhsul istehsalı obyektlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin **5 milyard 494 milyon manatını** daxili vəsaitlər təşkil etmişdir.
- Bu ilin ilk yeddi ayında sənayenin qeyri-neft sektorunda məhsul istehsalı **14,7%**, neft-qaz sektorunda isə **0,1%** artmışdır.

# Sosial xidmət modelləri təkmilləşdiriləcək

«Sosial xidmət haqqında» Qanuna görə, çətin həyat şəraitində yaşayan şəxslərin sosial xidmət göstərilməsi üçün müraciət etmək, sosial xidmətə olan tələbatın xarakteri nəzərə alınmaqla xidmət göstərən müəssisəni seçmək, sosial xidmət göstərilməsinə razılıq vermək və ya sosial xidmət göstərilməsindən imtina etmək kimi hüquqları var. Çətin həyat şəraiti dedikdə uşaqların valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olması, uşaqların sağlamlıq imkanlarının məhdud olması, yetkinlik yaşına çatmayanların baxımsızlığı və ya sosial təhlükəli vəziyyətdə olması, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyətinin olmaması, şəxsin ictimai təhlükəli xəstəliyə tutulmasına görə həyat fəaliyyətinin məhdudlaşması, insan alverinin qurbanı olması, məişət zorakılığından zərər çəkməsi və s. hallar başa düşülür.

Sosial xidmətin göstərilməsi çətin həyat şəraitində yaşayan şəxsin tələbatının bu sahədə çalışan işçi tərəfindən qiymətləndirilməsi və müəyyən edilməsi ilə həyata keçirilir. Sosial xidmətlərə tələbatın qiymətləndirilməsi və müəyyən edilməsi üçün sosial yadırğama (dezadaptasiya), sosial məhrumiyyət (deprivasiya), uğursuz sosial mühit meyarları əsas götürülür. Evdə (səyyar) sosial xidmət, yarımstasionar (günərzi) sosial xidmət, stasionar sosial xidmət, sosial-məsləhət yardımı kimi sosial xidmət formaları var.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) sosial xidmət müəssisələrində 1 182 nəfər tam dövlət təminatında yaşayır, stasionar şəkildə sosial xidmətlə təmin olunur. 12 853 nəfərə isə sosial işçilər tərəfindən evlərində səyyar qaydada sosial-məişət xidməti göstərilir. Bununla yanaşı, nazirliyin sifarişləri əsasında ixtisaslaşmış qeyri-hökumət təşkilatları tərəfindən 1 500 nəfər ehtiyacı olan uşağa və onların ailələrinə sosial xidmətlər göstərilir.

Hazırda ƏƏSMN Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində icra olunan «Azərbaycanda sosial xidmətlərin inkişafı» adlı yeni tvinninq layihəsini həyata keçirir. Layihənin məqsədi həyat şəraiti çətin olan şəxslərin sosial müdafiə ilə hərtərəfli təmin edilməsi və müvafiq sahədə qanunvericiliyin, institusional mexanizmlərin daha da təkmilləşdirilməsində ƏƏSMN-ə dəstək göstərməkdir. Bununla bağlı olaraq layihə çərçivəsində görüləcək işlərdə Avstriyanın müvafiq dövlət qurumu ilə əməkdaşlığın həyata keçirilməsi də nəzərdə tutulur. Dörd komponentdən ibarət layihə sosial xidmətlərlə təminatın Avropa İttifaqının ən yaxşı təcrübələrinə müvafiq təkmilləşdirilməsi üçün strateji çərçivənin yaradılmasını, bu sənədə əsasən mövcud qanunvericilikdə dəyişiklikləri nəzərdə tutan sənəd layihələrinin hazırlanmasını ifadə edir. Layihə üzrə sosial xidmət sisteminin modernləşdirilməsi işləri aparılacaq. Bu prosesin tərkib hissəsi kimi sosial xidmətlər üzrə keyfiyyət standartları və keyfiyyətin idarə olunmasına dair mexanizmlər, sosial xidmət təminatının monitorinqi və qiymətləndirmə sistemləri hazırlanacaq. Yeni sosial xidmət modelləri hazırlanaraq ilk növbədə Bakı şəhərində və üç pilot rayonda sınaqdan keçiriləcək. Həmçinin bu sahədə çalışacaq insan resurslarının inkişafı strategiyası və fəaliyyət planı hazırlanacaq, işçi heyətinə təlimlərin keçiləcək.

**A.NƏBİYEVA**

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində həyata keçirilmiş tədbirlər nəticəsində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmaqda təqsirləndirilərək həbs olunmuş mütəşəkkil cinayətkar dəstənin üzvləri ilə bağlı çoxepizodlu və mürəkkəb tərkibli cinayət işinin istintaqı tamamlanmış və ittiham aktı ilə məhkəməyə göndərilmişdir.

İstintaq tədbirləri nəticəsində sübuta yetirilmişdir ki, 7 iyul 2011-ci il tarixdən «Atrabank» ASC-nin Nəsimi filialının mühasibi, 3 mart 2014-cü ildən isə həmin filialın xidmət şöbəsinin korporativ müştərilərə xidmət qrupunun mütəxəssisi vəzifəsində işləyən Həsənağa Məmmədhüseyn oğlu Babayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmaq məqsədilə tanışları Tərxan Ceyhun oğlu Şirinov, Elman Hətəm oğlu Rəhimov, Hüseyn Yadulla oğlu Bayramov, Əlirza Abuzər oğlu Kərimov və Səhadət Səməd oğlu Cəfərovdan ibarət, Səbuhi Ağabala oğlu Qazıyev isə Ramşan Mahir oğlu Rzayev və Elvin Cəmil oğlu Əsgərovdan ibarət mütəşəkkil cinayətkar dəstələr yaradaraq 2012-2014-cü illər ərzində həmin qrupların fəaliyyətinə rəhbərlik etmişlər.

Dəstə üzvlərinin adlarına 107 MMC yaradılmış, həmin cəmiyyətlərin qeydiyyatda olduğu vergi orqanlarına bəyannamə ya təqdim edilməmiş, ya da təqdim edilən bəyannamələrə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil edilərək, ümumilikdə külli miqdar təşkil edən 1 milyon 270 min 884,46 manat məbləğində vergilər dövlət büdcəsindən yayındırılmışdır.

İstintaq-əməliyyat tədbirləri ilə qeyd olunan şəxslər tərəfindən bir sıra cinayət əməllərinin törədildiyi təkzibolunmaz faktlarla - ilkin mühasibat sənədləri, şahid ifadələri, telefon əlaqələrinin təhlili və yoxlanılması, ekspertiza rəyləri və digər istintaq dəlilləri ilə tam sübuta yetirilmişdir. Dövlətə vurulmuş ziyanın 190 550 manatı ödətdirilmiş, 363 987 manat məbləğində əmlak üzərinə həbs qoyulmuşdur.

Cinayətkar dəstənin üzvlərinə Cinayət Məcəlləsinin 213.2.1, 213.2.2, 213.1 və 308.2-ci maddələri ilə ittiham elan edilmiş, onlardan yeddi nəfəri barədə məhkəmə qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Cinayət işi üzrə ittiham aktı Respublika Baş Prokurorluğunda təsdiq olunaraq, iş baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

## Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Yeni hesablar planı üzrə 201 saylı «Xammal və materiallar» hesabı üzrə nağdsız qaydada xammal və materialların avans ödəmə yolu ilə alınmasına dair ikili yazılış üzrə təqdim etdiyimiz nümunələr şərti və öyrədici xarakter daşıyır.

**ƏDV ödəyicisi tərəfindən nağdsız qaydada 100% avans ödəmə yolu ilə materialların alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 06.01.2015 | 243, verilmiş qısamüddətli avanslar | Qabaqcadan alınacaq materialların ƏDV-siz dəyəri avans olaraq bank hesabından malsatana köçürülüb | 10000 | |
| 06.01.2015 | 222, bankda olan cari manat hesabı | Qabaqcadan alınacaq materialların ƏDV-siz dəyəri avans olaraq bank hesabından malsatana köçürülüb | | 10000 |
| 06.01.2015 | 243, verilmiş qısamüddətli avanslar | Eyni vaxtda alınacaq materialların əsas dəyərinin ƏDV-si avans olaraq ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-yə ehtiyac yoxdur) | 1800 | |
| 06.01.2015 | 223, ƏDV depozit hesabı | Eyni vaxtda alınacaq materialların əsas dəyərinin ƏDV-si avans olaraq ƏDV depozit hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-yə ehtiyac yoxdur) | | 1800 |
| 06.01.2015 | 243, verilmiş qısamüddətli avanslar | Və ya eyni vaxtda alınacaq materialların əsas dəyərinin ƏDV-si avans olaraq bank hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-yə ehtiyac yoxdur) | 1800 | |
| 06.01.2015 | 222, bankda olan cari manat hesabı | Və ya eyni vaxtda alınacaq materialların əsas dəyərinin ƏDV-si avans olaraq bank hesabından malsatanın ƏDV depozit hesabına köçürülüb (VHF-yə ehtiyac yoxdur) | | 1800 |
| 15.01.2014 | 201, xammal və materiallar | Materiallar malsatandan tam təhvil alınıb (ƏDV-siz məbləğ) | 10000 | |
| 15.01.2014 | 531, malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materiallar malsatandan tam təhvil alınıb (ƏDV-siz məbləğ) | | 10000 |
| 15.01.2014 | 241, əvəzləşdirilən ƏDV | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | 1800 | |
| 15.01.2015 | 531, malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | | 1800 |
| 15.01.2015 | 531, malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların avans olaraq əvvəl (06.01.2015-də) ödənilən ƏDV-siz dəyəri zaçot edilir | 10000 | |
| 15.01.2015 | 243, verilmiş qısamüddətli avanslar | Alınmış materialların avans olaraq əvvəl (06.01.2015-də) ödənilən ƏDV-siz dəyəri zaçot edilir | | 10000 |
| 15.01.2015 | 531, malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların avans olaraq ödənilən ƏDV-si zaçot edilir | 1800 | |
| 15.01.2015 | 243, verilmiş qısamüddətli avanslar | Alınmış materialların avans olaraq ödənilən ƏDV-si zaçot edilir | | 1800 |
| 15.01.2015 | 521, vergi öhdəlikləri | Malsatandan alınmış VHF üzrə alınmış materialların əsas dəyərinin ƏDV-si əvəzləşdirilir | 1800 | |
| 15.01.2015 | 241, əvəzləşdirilən ƏDV | Malsatandan alınmış VHF üzrə alınmış materialların əsas dəyərinin ƏDV-si əvəzləşdirilir | | 1800 |

Müəssisənin (alıcı, əslində, gələcək alıcı) ödədiyi avansa görə malsatandan VHF tələb etməsi düzgün deyildir və ya əksinə, malsatan tərəfinin müəssisədən aldığı avansa görə müəssisəyə (gələcək alıcıya) VHF təqdim etməsi düzgün deyildir. Əgər müəssisə (alıcı) malsatana ödədiyi avansa görə malsatandan VHF almışdırsa, materialları təhvil almadığı, yəni avans zaçot edilmədiyi müddət ərzində müəssisənin aldığı VHF üzrə ƏDV-ni əvəzləşdirmə hüququ yaranmır.

# Komisyon satış və vergi məsələləri

Ölkəmizdə sahibkarlıq fəaliyyəti çərçivəsində pərakəndə və topdan satışla, yəni sərbəst ticarətlə məşğul olan kifayət qədər təsərrüfat subyektləri vardır. Bu təsərrüfat subyektləri malsatanlardan malları hazır vəziyyətdə alır və malın əldəetmə dəyərinin üzərinə öz tədavül xərclərini və mənfəətlərini əlavə edərək müştərilərinə satırlar. Bütün ərzaq və qeyri-ərzaq, o cümlədən tikinti materialları və sənaye istehsalı məhsullarını mağazalardan topdan və pərakəndə formada satan hüquqi və fiziki şəxslər satışa çıxarmaq istədikləri malları, əsasən, alqı-satqı müqavilələri çərçivəsində əldə edirlər.

Lakin satıcı-ticarət obyektləri malların onların üzərində mülkiyyət hüququna malik olmadan da əldə etməklə və sonradan müştərilərə təqdim edilməsi yolu ilə satışı həyata keçirə bilər. Bunu komisyon qaydada mal satışı adlandırmaq olar və bu qaydada satış Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq müddəalarının tələbləri əsasında həyata keçirilir.

İqtisadçı ekspert Rəşad Hüseynov belə hesab edir ki, malların komisyon qaydada satışının ticarət obyekti üçün böyük əhəmiyyəti vardır: «Misal olaraq iki qaydada satış formasını göstərək. Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş vergi ödəyicisi olan istehsalçı şəxs istehsal etdiyi malı alqı-satqı müqaviləsi çərçivəsində 100 manata Bakı şəhərində fəaliyyət göstərən digər sadələşdirilmiş vergi ödəyicisi olan ticarət obyektinə satır və ticarət obyektində həmin mal müstəqil qiymət qoyularaq pərakəndə formada 120 manata satılır. Bu halda istehsalçı şəxsin 4 manat (100 x 4%), ticarət obyektinin isə 4,80 manat (120 x 4%) sadələşdirilmiş vergi öhdəliyi yaranır. Başqa sözlə, sadələşdirilmiş vergi ödəyicisi olan ticarət obyektinin vergi yükü 4 manat 80 qəpik təşkil edir.

Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş vergi ödəyicisi olan istehsalçı şəxs istehsal etdiyi malın satışını komissiya müqaviləsi çərçivəsində Bakı şəhərində fəaliyyət göstərən digər sadələşdirilmiş vergi ödəyicisi olan ticarət obyektinə tapşırır və bu məqsədlə malları ticarət obyektinə təhvil verir. Mal sahibi (istehsalçı şəxs, malın mülkiyyətçisi) ticarət obyektinin sahibi ilə müqavilə bağlayarkən malın 120 manata satışını ticarət obyektinə tapşırır və bununla da mal sahibi alqı-satqıda şəxsən iştirak etmək zərurətini öz üzərindən götürür. Ticarət obyekti isə istehsalçının malı üçün alıcı cəlb etmək və istehsalçının malının satışını 120 manata həyata keçirmək vəzifəsini öz üzərinə götürür və əvəzində satışın 20%-i həcmində muzd tələb edir. Mağaza (faktiki satışı həyata keçirən ticarət obyekti) satılan malın mülkiyyətçisi olmadan həmin malı öz adından 120 manata satsa da, bunu başqa şəxsin (istehsalçının) tapşırığı ilə etmiş olur. Komissiya müqaviləsi məhz elə bir hüquqi əsasdır ki, komisyonçuya (ticarət obyektinə) öz adından çıxış etməklə komitentin (bizim misalda istehsalçı şəxsin) əmlakını özgəninkiləşdirmək hüququ verir. Burada istehsalçıda 4,80 manat (120 x 4%), ticarət obyektində isə 0,96 ((120 x 20%) x 4%) manat sadələşdirilmiş vergi öhdəliyi yaranır. Deməli, komisyon qaydada mal satışı həyata keçirən ticarət obyektinin vergi yükü 0,96 manat təşkil etmiş olur».

Komisyon qaydada satışın əhəmiyyəti odur ki, ikinci əl kimi mal satışını həyata keçirən ticarət obyektinin dövriyyəsi barədə məlumatlar daha həqiqətə uyğundur və ticarət obyekti şişirdilmiş dövriyyələrlə təqdim olunan hesabatların qınağına çevrilmir. Xərclərin, sənədləşmələrin həcminin və risklərin azaldılması ilə nəticələnən satışın bu qaydası ticarət obyektlərinə daha sərfəlidir.

Ticarət obyektlərinin auditi zamanı hər iki qaydada satış əməliyyatları ilə rastlaşmaq olar. Lakin komisyon qaydada satış fəaliyyətini, demək olar ki, çox az sayda ticarət obyektində görmək olar. Hər iki əməliyyat satış mənzərəsi yaratsa da, mahiyyəti tamamilə bir-birindən fərqlidir.

Praktikada bir qayda olaraq ticarət obyektləri tərəfindən satılmaq məqsədilə alınan mallar, əsasən, alqı-satqı müqavilələri ilə, yəni malların üzərində tam mülkiyyət hüququna malik olmaq şərtilə əldə edilir və sonradan ticarət obyektlərinin xüsusi malı kimi satılır. Digər bir qaydaya əsasən də ticarət obyektləri tərəfindən mallar onlar üzərində mülkiyyət hüququna malik olmadan əldə edilir və sonradan başqasının malı kimi satılır: «Ticarət obyekti malları onların üzərində tam mülkiyyət hüququna malik olmaq şərtilə əldə etdikdə istədiyi qiymətə sata bilər, malları komisyon qaydada, yəni üzərində mülkiyyət hüququna malik olmadan əldə etdiyi halda isə mal sahibinin təyin etdiyi qiymətə satmalıdır.

Burada ticarət obyektləri tərəfindən komisyon qaydada mal satışı ilə bağlı əməliyyatların sənədləşdirilməsinin düzgünlüyü vacib məsələdir və audit zamanı hər bir əməliyyatı təsdiq edən sənədləşmə qaydasına diqqət yetirilməlidir. Sənədləşmələr qanunvericilik baxımından düzgün aparılmadığı halda, əlavə vergilərin və təhrif olunmuş vergilərin yaranması mümkündür.

Mallar üzərində mülkiyyət hüququ alıcı ticarət obyektinə keçməmək şərtilə ticarət obyekti tərəfindən komissiyaya təhvil alınması (qəbul olunması) və satış xidmətlərinin göstərilməsi üçün ticarət obyekti (mal sahibinin malını satan şəxs) ilə komintent şəxs (mal sahibi) arasında komissiya müqaviləsi (Mülki Məcəllənin 44-cü fəslinə uyğun olaraq) bağlanılır.

Komintent şəxs komissiyaya verdiyi malların ticarət obyekti (mağaza) tərəfindən təhvil-qəbulunu ciddi hesabat blankı hesab edilən qaimə-faktura ilə rəsmiləşdirir və malları ticarət obyektinə təhvil verir. Bu rəsmiləşdirmə malların ticarət obyektinə satılması kimi qiymətləndirilmir, çünki burada alqı-satqı müqaviləsi deyil, komissiya müqaviləsi bağlanılmışdır.Ticarət obyektindən malın müştərilərə - əhaliyə və hüquqi şəxslərə pərakəndə və topdan formada nağd satışı ticarət obyektinə məxsus NKA və ya POS-terminal vasitəsilə çeklə və qaimə-faktura ilə, həmçinin ehtiyac yarandığı halda alqı-satqı müqaviləsi ilə rəsmiləşdirilir.

Əgər mallar faktiki olaraq ticarət obyekti tərəfindən komisyon qaydada satılmışdırsa, satılmış malların dəyərinin alıcılardan alınıb-alınmamasından və ya alıcılardan alınan məbləğlərin mal sahibinə ödənilib-ödənilməməsindən asılı olmayaraq ticarət obyekti (komisyonçu) alıcılara faktiki olaraq təqdim edilmiş (satılmış, təhvil verilmiş) malların miqdarını, məbləğini, satış vaxtını və digər zəruri göstəriciləri əks etdirən yazılı bildirişi (yaxud aktı), yəni satılmış malların hərəkətini əks etdirən cədvəli mal üzərində tam mülkiyyət hüququna malik şəxsə təqdim edir. Bu cədvəli «satış xidmətlərinin göstərilməsinə dair akt» da adlandırmaq olar və bu akt komissiya müqaviləsi üzrə müəyyənləşdirilmiş vaxtlarda hesabat dövrləri üzrə komitentə təqdim olunur. Aktda ticarət obyektinə ödənilməsi nəzərdə tutulan muzd (muzdun hesablanması formatı ilə birlikdə, məsələn, dövriyyədən faizlə) göstərilməlidir», - Rəşad Hüseynov demişdir.

Ticarət obyektinin uçotunda komisyon qaydada malların komitentdən təhvil alınmasının və alıcılara satışı üzrə əməliyyatların uçotu digər bütün satış əməliyyatlarının uçotundan ayrı aparılmalıdır. Vergi Məcəlləsinin 172.6-cı maddəsində göstərilir ki, vergitutma məqsədləri üçün ƏDV ödəyicisi olan şəxslər tərəfindən bu maddədə göstərilən əməliyyatlardan başqa digər əməliyyatlar da həyata keçirildikdə, həmin əməliyyatların uçotu ayrıca aparılır. Sadələşdirilmiş vergi ödəyicisi tərəfindən komisyon qaydada malların alınması və satışı üzrə əməliyyatların uçotunun ayrı aparması tələbi Vergi Məcəlləsində ayrıca nəzərdə tutulmasa da, bu əməliyyatların ayrı aparılması məqsədəuyğundur. Çünki sadələşdirilmiş vergi ödəyicisi bu əməliyyatlar çərçivəsində mal sahibinə satış xidmətləri göstərir və göstərdiyi xidmətin əvəzində muzd (haqq) alır.

Sadələşdirilmiş vergi ödəyicisi olan şəxs həm alqı-satqı, həm də komissiya qaydasında əldə etdiyi malların satışını həyata keçirirsə, alqı-satqı müqaviləsi ilə əldə etdiyi malların alıcılara satışından daxil olan vəsaitlərin tam dəyərini vergiyə cəlb etdiyi halda, komissiya qaydasında əldə etdiyi malların satışından əldə etdiyi vəsaitləri birbaşa vergiyə cəlb olunan dövriyyə kimi qəbul etməməlidir. Burada vergitutma obyekti ticarət obyekti tərəfindən həyata keçirilən satış dövriyyəsindən ticarət obyektinə verilən mükafatdır (məsələn, dövriyyədən faiz). Audit zamanı əsas diqqət yetirilməli məsələ malın komissiya qaydasında qəbulu və satışı ilə bağlı əməliyyatları əks etdirən sənədlərin Mülki Məcəllənin tələblərinə (maddə 808 - 821) uyğun düzgün və rekvizitli tərtib olunmasıdır.

**Fəxriyyə İKRAMQIZI**

vergi təqvimi

**AVQUST**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24/31 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 avqust - «5», «(5)» və «6».

20 avqust - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi:** Yol vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Çin dəmir filizinin hasilatı üzrə vergini azaldır

*ÇXR hakimiyyəti xammalın kəskin ucuzlaşması nəticəsində yerli mədənçilərin qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmələri üçün dəmir filizi hasilatı üzrə vergini təqribən yarıya qədər, yəni baza dərəcəsindən 40%-dək azaldır.*

Çin Dövlət Şurasının məlumatında deyilir ki, müəssisələrin əməliyyat fəaliyyətini yaxşılaşdırmaq, struktur dəyişiklikləri stimullaşdırmaq, inteqrasiyalı inkişafı dəstəkləmək, yuxarı və aşağı bölmələrə aid olan sektorları yeniləşdirmək, habelə dövlət xammal tədarükünün təhlükəsizliyini təmin etmək üçün dəmir filizi ehtiyatlarından toplanan verginin nisbətini endirmək və sabit faiz dərəcəsinin 40%-i həcmində müəyyənləşdirmək barədə qərar qəbul edilib. Hazırda Çində ehtiyatlara görə tutulan verginin dərəcəsi dünyada ən yüksək göstəricilərdən biri sayılır.

# Zəngin amerikalıların vergiləri azaldıla bilər

*ABŞ Nümayəndələr Palatası əhalinin zəngin təbəqəsini təmsil edən vətəndaşların daşınmaz əmlak vergisini ləğv etməyi təklif edib.*

Təxminlərə görə, Nümayəndələr Palatasının hazırladığı qanun layihəsinin əhatə dairəsinə 5500 ev təsərrüfatı düşür ki, onların saxlanılması il ərzində 10,9 milyon ABŞ dollarına başa gəlir. Vergilər və rüsumlar üzrə vahid Amerika komitəsinin məlumatına görə, belə gəlirli sahələrin sahibləri ölkə vətəndaşlarının cəmi 0,2%-ni təşkil edir.

ABŞ Konqresinin aşağı palatasından bildirilib ki, yeni qanun layihəsi ölkə vətəndaşlarının 99,8%-nə ümumiyyətlə toxunmayacaq. Vergilər və rüsumlar üzrə vahid Amerika komitəsindən məlumat verilib ki, qanunverici orqan bu təşəbbüsü yaxın on il ərzində reallaşdırmağı planlaşdırır.

Layihə təsdiq olunarsa, zəngin təsərrüfat sahələrinə malik amerikalıların gəlirləri illik 20 milyon dollar artacaq. Əvəzində isə bu ölkənin onsuz da az olmayan xarici borcu daha 269 milyard dollar artacaq.

Konqresin qiymətləndirmələrinə əsasən, hazırda ABŞ iqtisadiyyatı böyük borc problemi ilə üzləşib. Proqnozlara görə, ölkənin borcu 2039-cu ildə ÜDM-in 100%-ni aşacaq.



# Korporativ vergitutmanın yeni strukturu Avropa Parlamentinin gündəmindədir

Avropa Komissiyası Avropa İttifaqı (Aİ) çərçivəsində haqsız vergi rəqabəti və korporativ vergilərin ödənilməsindən yayınma ilə mübarizə məqsədi daşıyan tədbirlər paketini təqdim edib. Paket qısamüddətli perspektivdə komissiyanın həyata keçirmək niyyətində olduğu bir sıra tədbirləri nəzərdə tutur. Buraya İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə aparılan danışıqlarda müzakirə edilən vergitutma və iqtisadi məzmun arasında sıx əlaqələrin qurulması, eləcə də bir dövlətin vergilərlə bağlı qərarlarının Aİ üzvü olan digər dövlətin vergitutma bazasına təsir göstərəcəyi halda, həmin qərarlarla bağlı avtomatik informasiya mübadiləsi aparılması kimi məsələlər daxildir.

Müzakirələrdə iştirak edən vergi məsələləri üzrə komissar Pyer Moskoviçi xəbərdarlıq edib ki, haqsız vergi rəqabəti şirkətlərin arasında əlaqələrə mənfi təsir edir və bu, kütləvi iflasa gətirib çıxara bilər. O, etiraf edib ki, Aİ üzvü olan dövlətlərin milli vergi qaydalarında olan fərqlər İttifaqın vahid bazarına zərər vurur və vergitutma rejimlərinin uyğunlaşdırılması bu proseslərə müsbət təsir edə bilərdi. Bildirilib ki, vergitutma məsələləri üzrə gələcək fəaliyyəti müəyyən etmək məqsədilə 2015-ci ilin sonuna qədər Avropada vergi rejimləri üzrə mövcud vəziyyətin geniş təhlilini təqdim edəcək.

Avropa Parlamentində vergi qətnamələrinin müzakirəsi zamanı bir sıra deputatlar vergilərin gəlirlərin alındığı yerdə ödənilməsinin tərəfdarı olduğunu bildiriblər. Digər bir qrup deputat isə təkid edib ki, Aİ-yə üzv dövlətləri arasında ümumi konsolidasiya olunmuş korporativ vergi bazası yaratmaq lazımdır. Deputatlar beynəlxalq forumlar çərçivəsində üçüncü ölkələrlə əlaqəli olan vergi məsələlərində şəffaflığın təmin olunmasının ətraflı müzakirə edilməsini də istəyiblər.

Xarici ölkələrin təcrübəsi

# Belarus Respublikasının vergi sistemi: *mənfəət vergisi*

2005-ci ildən əvvəl qeydiyyatdan keçmiş və səhmlərinin 30%-dən çoxu xarici iştirakçılara məxsus olan müəssisələr birinci mənfəət ilindən başlayaraq 3 il müddətinə vergidən azad edilir.

Azad iqtisadi zonalar (AİZ): Belarusda AİZ xüsusi vergi və gömrük rejimlərindən bəhrələnirlər. Hazırda ölkənin hər bir vilayətinin (Brest, Minsk, Vitebsk, Mogilyov, Qomel-Raton, Qrodnoinvest) təmsil olunduğu altı AİZ mövcuddur. AİZ-lərə idxal olunan mallar gömrük rüsumlarından və idxalda ƏDV-dən azaddır. AİZ-lərdə istehsal olunmuş mallar hökumət tərəfindən təsdiq olunmuş idxalı əvəz edən mallar kimi xüsusi siyahıya daxildirsə, ölkənin digər ərazilərinə ixrac olunarkən də gömrük rüsumlarına və ƏDV-yə cəlb edilmir. Bu malların ölkədən ixracına dair heç bir lisenziyalaşma və ya digər məhdudiyyətlər tətbiq edilmir. Banklar, sığorta, mərc oyunları, ticarət və iaşə xidmətlərinə xüsusi vergi rejimi tətbiq edilmir. AİZ-lərdə rezident olan müəssisələr aşağıdakı vergi konsessiyalarından istifadə edə bilərlər:

- Müəssisələr öz məhsul və xidmətlərinin satışından əldə etdikləri mənfəət üzrə 5 il müddətinə mənfəət vergisindən azad edilirlər. Növbəti illərdə vergi dərəcəsi 50% azaldılır;
- Belarusda öz məhsullarının satışı zamanı ƏDV-nin azaldılmış dərəcəsindən istifadə edilir;
- AİZ-də yerləşən müəssisə əmlakı əmlak vergisindən azad edilir. Müəssisələrin AİZ-lərdən kənarda yerləşmiş əmlakı adi qaydada əmlak vergisinə cəlb edilir.

Yuxarıda qeyd olunmuş vergi konsessiyaları aşağıdakı fəaliyyət növlərinə tətbiq edilir:

- Müəssisələrin öz məhsullarını xarici hüquqi şəxslər və fiziki şəxslərə təqdim etməsi;
- Müəssisələrin istehsal etdikləri mallar, idxalı əvəz edən məhsullara aid edilmişdirsə, onların Belarusda təqdim edilməsi;
- Müəssisələrin istehsal etdikləri məhsulların AİZ-lərin digər rezidentlərinə təqdim edilməsi. AİZ-lərdə fəaliyyət göstərən müəssisələrin investisiya layihələrinin dəyəri ən azı 1 mln. avro olmalıdır.

Yüksək texnologiyalar parkında informasiya sistemlərinin dəstəyi, proqram təminatına əsaslanan məlumat emalı fəaliyyəti və digər oxşar tədqiqat fəaliyyəti ilə bağlı təhlil, dizayn və proqram təminatı dəstəyi ilə məşğul olan müəssisələr bu tip fəaliyyət üzrə güzəştlərdən istifadə edə bilərlər.

Parkın rezidentlərinin əsas vəzifəsi yuxarıda qeyd olunan fəaliyyətdən əldə etdikləri ümumi məcmu gəlirin 1%-ni park administrasiyasına ödəməkdir. Park rezidentləri digər vergi öhdəliklərindən azad edilirlər. Konkret olaraq bu tip müəssisələr mənfəət vergisi, ƏDV, müəssisələrin əmlak, torpaq vergilərinin və bir sıra yerli vergi və ödənişlərin ödənilməsindən 3 il müddətinə azad edilirlər. Park rezidentləri həmçinin qeyd olunan fəaliyyətlə bağlı park ərazisinə idxal olunan avadanlıqlar üzrə gömrük rüsumu və ƏDV-dən də azad olunurlar.

Park rezidentlərinin işçilərinin (təmizləyici və mühafizəçilər kimi xidmət personalı istisna olmaqla) əməkhaqqı gəlirləri 9% dərəcə ilə gəlir vergisinə cəlb edilir və bu cür gəlirlər gəlir vergisi öhdəliyi üzrə illik məcmu gəlir vergisinə daxil edilmir. Park rezidentlərinin işçilərinin sosial sığorta ödənişləri üçün baza məbləği Belarusda əvvəlki ay üçün rəsmi təsdiq olunmuş orta aylıq əməkhaqqı hesab olunur.

Park rezidentlərinin xarici hüquqi şəxslərə ödədikləri dividend, faiz və royaltilərin məbləği, əgər dövlətlərarası sazişlərdə daha əlverişli vergitutma qaydaları nəzərdə tutulmamışdırsa, 5% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb edilir. Park rezidentlərinin iştirakçılarına-səhmdarlarına ödədikləri dividendlərə ofşor rüsumları tətbiq edilmir. Buna baxmayaraq faiz, royalti və xidmət haqları kimi digər ödənişlər ofşor rüsumunun obyekti ola bilər.

Park rezidentləri tərəfindən yüksək texnologiya fəaliyyətlərində istifadə edilməsi üçün idxal edilən mallar idxal rüsumları və ƏDV-dən azaddır.

Belarusun kiçik şəhərlərində və kəndlərində qeydiyyatdan keçən və həmin ərazilərdə fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar dövlət qeydiyyatına alındıqdan etibarən 7 il müddətinə mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, müəssisələrin əmlak vergisi və bəzi digər vergilərdən azaddırlar (ƏDV, idxal rüsumları, ətraf mühit vergisi və ofşor rüsumları istisna olmaqla). Bu güzəşt öz məhsul və xidmətlərinin təqdim edilməsindən gəlir əldə edən şəxslərə tətbiq edilir.

Yuxarıda göstərilən şəxslərin kapital qoyuluşu şəklində idxal etdikləri texnoloji avadanlıq və ehtiyat hissələri idxalda ƏDV və gömrük rüsumlarından azaddır. Həmin azadolmalar müəssisələrin kiçik şəhərlərdə və kəndlərdə yerləşən, hazırda mövcud olan və 31 dekabr 2018-ci il tarixinədək təsis ediləcək filiallarına da tətbiq edilir.

Hər hansı digər vergi güzəşti rejimlərindən (məsələn, yüksək texnologiyalar və ya AİZ-lər) istifadə edən müəssisələr, bank və ya sığorta fəaliyyəti, qumar oyunları, KİV və bəzi digər fəaliyyət növləri ilə məşğul olan müəssisələr bu azadolmalardan faydalana bilməzlər.

1 yanvar 2014-cü ildən R&D fəaliyyətindən yaranmış mülkiyyət hüquqlarının satışından əldə olunmuş mənfəət vergidən azaddır: bu şərtlə ki, həmin hüquqlar r&d hüquqlarının dövlət reyestrinə daxil edilmiş olsun.

8 iyul 2009-cu ildən Belarusda sərnişin avtomobilləri istehsalına başlayan müəssisələrə yeni güzəştlər təqdim edilir. Güzəşt hüququ əldə etmək istəyən müəssisələr Sənaye Nazirliyi ilə müqavilə bağlamalıdır. Həmin müqavilədə istehsalın başlanması dövrü, idxal ediləcək ehtiyat hissələrinin siyahısı və onların dəyəri, il ərzində investisiyaların həcmi və fəaliyyət planının digər təfsilatları müəyyən edilir. Bu müqavilə 10 ilədək müddətə imzalana və növbəti 10 il müddətinə uzadıla bilər. Müəssisənin istehsal qabiliyyəti il ərzində 10 000 avtomobildən az olmamalıdır. Verilən güzəştə əsasən, müəssisə müqavilənin qüvvəyə mindiyi vaxtdan sonrakı 3 il ərzində mənfəət vergisi və aksizlərdən azad olunur. Bundan əlavə, müqavilənin qüvvədə olduğu dövr ərzində texnoloji avadanlıq və ehtiyat hissələrinin istehsal üçün idxalı gömrük rüsumları və ƏDV-dən azaddır (Rusiyadan idxala görə ödənilən ƏDV istisna olmaqla).

Yüksək texnoloji mal və xidmətlərin istehsalından əldə olunan mənfəət 10% dərəcə ilə vergiyə cəlb olunur. Bununla yanaşı, əgər bu fəaliyyətlərdən əldə olunan gəlir müəssisənin ümumi gəlirinin 50%-dən artıq olarsa, bu mənfəət vergidən azaddır. Bu güzəştdən faydalanmaq hüququ olan şəxslərin siyahısı prezident tərəfindən təsdiq olunur.

Lazer-optik avadanlıq istehsal edən şəxslər mənfəət vergisinə 10% dərəcə ilə cəlb olunurlar. 22 avqust 2010-cu ildən mənfəət vergisi elm və texnologiya parklarına, texnologiya transfer mərkəzlərinə və onların rezidentlərinə münasibətdə də 10% dərəcə ilə mənfəət vergisi tətbiq edilir. Bunlarla yanaşı, ölkə prezidenti xüsusi hallarda vergi azadolmaları və güzəştləri müəyyənləşdirə bilər.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord




**Yuxarıdan aşağı:** 1.Misirin şimalında, Nil çayı boyunca şimali Sudana qədər uzanan tarixi bölgə; 2.Azərbaycanda bitən bitki, meyvəsi plovun bəzəyi hesab edilir; 3.Azərbaycan Premyer Liqasında mübarizə aparan futbol klubu; 4.Azərbaycanlı xanım jurnalistin adı; 5.«Qayınana» bədii filmində (1978) aktrisa Tanilla Əhmərovanın canlandırdığı obraz; 6.Səyahət edən, fiziki dünyadan əl çəkərək, mənəvi dünyada yaşayan, sufiliyi təbliğ edən ruhani insan; 9.Taxıllar fəsiləsindən bitki cinsi; 13.Lerik rayonunda kənd; 15.1994-cü ildə yaranmış və 1996-2004-cü illər arası Əfqanıstan dövlətini idarə etmiş hərəkat; 16.İrland əsilli ABŞ rəssamının soyadı; 17.Ərazisinə görə Avrasiyadan sonra ikinci böyük materik; 18.Yer kürəsinin atmosfer qatına daxil olarkən görünən iz buraxan xırda səma cisimləri; 20.Azərbaycanlı fantast yazıçının adı; 21.İnsanın könüllü surətdə, məcbur edilmədən məşğul olduğu və böyük zövq aldığı fəaliyyət. **Soldan sağa:** 1.Adı Nizami Gəncəvinin «Sirlər xəzinəsi» əsərində çəkilmiş İran padşahı; 5.Kalsiumla zəngin qida məhsulu; 7.Vahid mərkəzdən idarə edilən, vahid kommuna uğrunda aparılan inqilabi hərəkat və həmin hərəkatın üzvü; 8.Qayığı sürmək üçün kürək, qayıqçı kürəyi; 10.Aldatmaq məqsədi ilə deyilən əsilsiz söz; 11.Latın Amerikası, İspaniya və ABŞ-ın cənub-qərb regionlarında məşhurlaşmış meksikalıların xalq musiqisi janrı; 12.Amerika ədəbiyyatında romantik cərəyanın yaradıcılarından olan yazıçılardan birinin adı; 14.Hindistanda və Şərqin bəzi başqa ölkələrində: əsli-nəsəbi, ata-baba peşələri və hüquqi vəziyyətləri cəhətindən bir-biri ilə bağlı olan qapalı ictimai qrup, təbəqə, silk; 19.Məhrumun cəsədinin olmadığı yerdə ucaldılan başdaşı; 21.Almaniyada çay; 22.Perunun paytaxtı; 23.Afrikada dövlət; 24.Mənşə və bəzi irsi xüsusiyyətlərinə görə bir olan tarixən təşəkkül tapmış insan qrupu; 25.Həmişə bir yerdə olan, yerini dəyişməyən, bir yerdən başqa yerə köçürülməyən idarə, əşya.



*Latın Amerikası, İspaniya və ABŞ-ın cənub-qərb regionlarda məşhurlaşmış meksikalıların xalq musiqisi janrı*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Məkruh; 2.Omnibus; 3.Akula; 4.Disput; 5.Nəvai; 6.Muskat; 9.Loto; 13.İnşa; 15.Kenitra; 16.İquasu; 17.Safari; 18.Fleyta; 20.Mufta; 21.Ştamp. **Soldan sağa:** 1.Miokardit; 5.Nom; 7.Konfutsi; 8.Kvas; 10.Umbra; 11.Utopiya; 12.Eskiz; 14.Toska; 19.«Qamaşma»; 21.Şinel; 22.Alfa; 23.Sabantuy; 24.Upa; 25.Olimpiada.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14000**

